Bu bir xalq qəzetidi

ƏDALƏT

## Qarabağda kütləvi məzarlıqlarda aşkarlanan meyit qalıqları ekshumasiya edilib

**Qarabağda kütləvi məzarlıqlarda aşkarlanan meyit qalıqları ekshumasiya edilib. Bu barədə Azərbaycan Respublikası Hərbi Prokurorluğu açıqlama yayıb.**

Qeyd edilir ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə hərbi və siyasi-diplomatik yolla 30 ilə yaxın müddətdə işğal altında olan tarixi torpaqlarımız azad olunub. Azərbaycan Respublikası Hərbi Prokurorluğu tərəfindən, Dövlət Təhlükəsizliyi Xidmətinin, Əsir və İtkin Düşmüş, Girov Götürülmüş Vətəndaşlarla Əlaqədar Dövlət Komissiyasının, Beynəlxalq Qızıl Xaç Komitəsinin və digər müvafiq qurumların nümayəndələri ilə birlikdə Şuşa rayonunun Daşaltı kəndi, Xocavənd rayonunun Edilli kəndi, Ağdam rayonunun Sırxavənd kəndi, eləcə də Xocalı rayonunun Fərrux kəndi və digər ərazilərdə aparılmış müvafiq axtarış tədbirləri nəticəsində aşkar edilmiş kütləvi məzarlıqlardan Birinci Qarabağ müharibəsi dövründə itkin düşmüş şəxslərə məxsus olması ehtimal olunan xeyli sayda insan meyitinin qalıqları ekshumasiya edilib, həmin meyit qalıqları ilə bağlı məhkəmə-tibbi və molekulyar-genetik ekspertizaları təyin edilərək icraya yönəldilib və digər zəruri hərəkətlər yerinə yetirilib.

Qeyd olunub ki, Ermənistan Respublikasının Silahlı Qüvvələri və qanunsuz erməni silahlı birləşmələri tərəfindən xalqımıza qarşı törədilmiş sülh və insanlıq əleyhinə olan, müharibə, terrorçuluq, qəsdən adam öldürmə və digər cinayət faktları ilə bağlı Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda Cinayət Məcəlləsinin müvafiq maddələri ilə istintaq olunan cinayət işi üzrə istintaq-əməliyyat tədbirləri davam etdirilir.

## Hulusi Akar ukraynalı həmkarı ilə danışdı



**Türkiyənin Milli Müdafiə naziri Hulusi Akar Ukraynanın müdafiə naziri Oleksii Reznikov ilə telefonla danışıb.**

Adalet.az xəbər verir ki, bu barədə "Haber Global" məlumat verib.

Türkiyə Müdafiə Nazirliyindən görüşlə bağlı edilən yazılı açıqlamaya görə, nazirlər arasında Mariupoldan təxliyə və humanitar yardımların çatdırılması ilə bağlı fikir mübadiləsinin aparılıb. Akar atəşkəsin ən qısa zamanda elan edilməsinin vacibliyini vurğulayıb. O, Türkiyənin Ukraynaya humanitar yardım üçün üzərinə düşəni etməyə davam edəcəyini bir daha bildirib.

## Apteklərdə monitorinq: 9 adda dərman müsadirə olunub



**Bakı şəhəri üzrə 10, digər rayonlar üzrə 2 aptek olmaqla, 12 aptekdə planlı və plandankənar yoxlamalar həyata keçirilib. Bu barədə Analitik Ekspertiza Mərkəzindən məlumat verilib.**

Qeyd edilib ki, müsadirə edilən qeydiyyatsız və sertifikatsız dərman vasitələrinin sayı 9 adda 26 qutu təşkil edib. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 215.4, 221.1, 451, 452.1, 452.3 maddələri üzrə 7 protokol tərtib edilib.

## Rövşən Rzayev bu tarixdə vətəndaşları qəbul edəcək



**Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev, aprelin 8-i saat 10:00-da Biləsuvar rayonunda, Cəlilabad, Cəbrayıl və Biləsuvar rayonlarından olan vətəndaşları qəbul edəcək.**

Adalet.az xəbər verir ki, qəbul zamanı Biləsuvar, Cəlilabad və Cəbrayıl rayonları sakinlərinin müraciətləri dinləniləcək. Qəbulda iştirak etmək istəyən vətəndaşlar Dövlət Komitəsinin "Qaynar xətt" nömrəsi -1657 və 055 900 12 40 mobil nömrəsi ilə əlaqə saxlayaraq qəbula yazıla bilərlər.

Xatırladaq ki, qəbul pandemiya tələblərinə uyğun olaraq keçiriləcək. Qəbulda peyvənd və yaxud immunitet sertifikatı, həmçinin COVID-19-a qarşı peyvəndə əks-göstəriş sertifikatı olan vətəndaşlar iştirak edə bilər.

## Azərbaycanda gündəlik yoluxma sayı 10-dan aşağı düşdü

**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 6 yeni yoluxma faktı qeydə alınıb, 17 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan Adalet.az-a verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 1 nəfər vəfat edib. İndiyədək ümumilikdə 792 067 nəfər koronavirus infeksiyasına yoluxub. Onlardan 782 040 nəfər müalicə olunaraq sağalıb, 9 698 nəfər vəfat edib, aktiv xəstə sayı 329 nəfərdir.

Ölkədə son sutka ərzində 2 106, hazırkı dövrədək isə 6 716 463 test aparılıb.

## Kəmaləddin Heydərov hadisə yerində



**Fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərov bu gün Bakı şəhəri, Səbail rayonu, Tərlan Əliyarbəyov küçəsində yerləşən gecə klubunda baş vermiş partlayışla əlaqədar həmin obyektə gəlib.**

Bu barədə Adalet.az-a Fövqəladə Hallar Nazirliyindən bildirilib. Nazirə baş vermiş hadisənin nəticələrinin aradan qaldırılması və ilkin ehtimal olunan səbəbləri barədə yerində ətraflı məlumat verilib.

K.Heydərov partlayışın səbəblərinin hərtərəfli və obyektiv araşdırılması üçün aidiyyəti üzrə müvafiq tapşırıqlar verib.

## Ermənistan ordusu Tovuzu atəşə tutdu



*Aprelin 3-ü saat 23:00-da Ermənistan silahlı qüvvələrinin bölmələri dövlət sərhədinin Tovuzqala rayonunun Müsürskənd yaşayış məntəqəsində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Tovuz rayonunun Ağdam yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini atəşə tutub. Bu barədə Adalet.az-a Müdafiə Nazirliyindən məlumat verilib. Bölmələrimiz tərəfindən adekvat cavab tədbirləri görülüb. Ordumuzun sıralarında şəxsi heyət və texnika baxımından itki yoxdur.*

Bu bir xalq qəzetidi

www.adalet.az

ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | Gündəlik hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 17 (5954) 5 aprel 2022-ci il | Qiyməti 30 qəpik

# Bakıda gecə klubunda partlayış



Bax:səh-2

## VOR ZAKON HAMINI "NEPRAV" ÇIXARIR

**Əvvəllər dünyada iki vor zakon vardı - ABŞ və SSRİ. Və dünyanı da bu iki vor zakon idarə edirdi. SSRİ kasıb dövlətləri yığmışdı başına, öz əhalisini yarıac saxlayıb onları yedirdirdi. Bir "Varşava bloku" yaratmışdı, blok elə özüydü. Bütün silah-sursatları da özünün idi. Bu bloka daxil olan dövlətlərin zabit və əsgərlərinin maaşını da özü verirdi, qarınlarını da özü doyururdu.**

ABŞ isə varlı dövlətləri yığmışdı başına, hamısına da haqq qoymuşdu. Sonra qurdu-qoşdu Qorbaçovu, daha dəqiq desək, öz agentini SSRİ-nin başına gətirdi, o da SSRİ-ni də, "Varşava bloku"nu da dağıtdı. Dünyada bir vor zakon qaldı, o da ABŞ. Və başladı dünya dövlətlərinə "oturun-durun" deməyə. Kim bir az gec dursa və ya gec otursa onun ölkəsini darmadağın edirdi.

Təbii ki, SSRİ-nin varisi olan Rusiya bunu yemirdi. O da yenidən öz titulunu bərpa etmək istəyirdi və istəyir. Amma gücü çatmır. Ona görə də çıxış yolunu ABŞ-la, NATO ilə müharibədə görür. Və bu müharibəni Ukraynada başlayıb.

ABŞ da "sxodka" çağırıb və Bayden də əsən barmaqları ilə dünya dövlətlərini hədələyərək deyir ki, barmağımın əsməyinə baxmayın, kim Rusiyaya salam versə, soxacam gözünə, Bu "sxodka"ya qatılmayan, özünün müstəqil siyasətini aparan ölkələr üçün də qurğular qurur.

Məsələn, Pakistanın baş naziri İmran Xanı istefaya məcbur etdi. Hələ ki Çinə, Hindistana, Türkiyəyə gücü çatmır. Onlarla mehriban düşmənçilik edir.

Adətən vor zakonların çıxardığı qərar ədalətli olur. Amma bunun ABŞ-ın çıxardığı qərarlara aidiyyatı yoxdu.

**Yəqin ki bir gün əsl vor zakonlar yığışıb bir ədalətli qərar çıxarar, ABŞ-ı tacdan məhrum edər.**

## Elşad Miri: Ramazan ayında Ukraynada baş verənlərə nə deyəcəklər?



**"Ramazanın ilk gününü gecə klubunda qarşılamağın sonu belə olmalı idi" demək vicdanlı insanın sözü deyil. Ramazanın 2-ci və ya 3-cü günü baş versəydi, nə deyəcəkdilər? Ramazan ayında Ukraynada baş verənlərə nə deyəcəklər? Yaxud bu ayda müxtəlif məkanlarda əyləndikləri halda heç bir hadisə baş verməyənlərə o zaman haqq qazandıracaqlar?**

Biri deyir məhərrəmlikdə toy etmək olmaz, digəri may ayının ağır olduğu iddia edir... Bu dar düşüncənin ağızdan çıxan ifadələridir. Həmin günlərdə baş verən bədbəxt hadisənin də belə "qiymətləndirirlər". Kimin necə və hansı formada öləcəyini heç kim bilməz. Bu cür iddia sahiblərinin ölüm anına kimi eyni düşüncədə qalacağına da zəmanət yoxdur. Bu hadisəni Allahın qəzəbi kimi təqdim edənlərə məlumat üçün qeyd edim ki, Allahın qəzəblə əlaqəli adı və sifəti də yoxdur. Allahı qəzəbləndirənlər ən böyük zülm olaraq Ona ortaq qoşanlardır. Başqalarına böhtan atanlardır. Öz fikirlərini Allaha istinad edənlərdir. Onun mesajlarını dəyişdirib təqdim edənlərdir ("Bəqərə" surəsi, 2/79; "Ali-İmran" surəsi, 3/78). İnsanlar necə əylənəcəklərinə özləri qərar verirlər. Allah insanlara Ona güvənib yaşamaq və ya inkar edib yaşamaq seçimini verib. Yaddan çıxarmayaq ki, günahsız insan yoxdur. Tövbə qapısı da ölüm anına kimi açıqdır.

## İntihar edən qazi ailəsi üçün məktub yazıbmış



**Ötən həftənin şənbə günü Gədəbəy rayonunun Çanaqçı kəndində Vətən müharibəsi iştirakçısı, 22 yaşlı İsmət Babakişiyev intihar edib.**

Sözügedən kəndin icra nümayəndəsi Şahlar Məmmədov "Unikal"a hadisənin təfərrüatlarını açıqlayıb: "İsmət Babakişiyev özünü asmazdan öncə telefonunda yaxınları üçün məktub yazıb. O, həmin qeyddə intihar etməsində heç kimin təqsirkar olmadığını bildirib. Heç bir xəstəliyi də yox idi. Sadəcə olaraq, İ.Babakişiyev Vətən müharibəsində iştirak edərkən Şuşanın yaxınlığında 24 gün mühasirədə olmuşdu. Evinə geri döndükdən sonra isə müharibənin təsirində qalmışdı, travmalı idi.

Onu da diqqətinizə çatdırım ki, İsmət Babakişiyev intihar etməzdən 1 gün öncə 2 danasını satıb. Ertəsi gün həmin pulla qoyun almağa gedəcəkmiş. İsmətin ciddi maddi problemi də yox idi", - deyə o, bildirib.

Qeyd edək ki, İsmət Babakişiyev Şuşanın, Füzulinin, Xocavəndin, Cəbrayılın azad olunmasına görə və "Şücaətə görə" medalları ilə təltif olunub.

**Aqil ABBAS**
**aqilabbas@rambler.ru**



## KƏSSƏ HƏR KİM TÖKÜLƏN QAN İZİNİ, QURTARAN DAHİ ODUR YER ÜZÜNÜ

***Rusiyanın apardığı işğalçı müharibə nəticəsində Ukraynanın şəhər və kəndləri Ağdamın gününə düşüb. Mariapolun indiki vəziyyətinin şəklinin yerinə Ağdam şəhərinin şəklini qoysan o qədər də böyük fərq etməz. Əhalisi də elə ağdamlıların günündədi. Xalq da baş götürüb yarısı Rusiyaya, yarısı Avropa ölkələrinə qaçır. Atılan raketlər, bombalar baxmır bu uşaqdı, qadındı, qocadı. Bir sözlə, müharibə dəhşətdi. Biz bunu görmüşük, ona görə də dünyanın harasında müharibə olsa o ağrını yenidən yaşayırıq.***

***Hüqo deyir: "Dünyada uşaq qığıltısından böyük himn yoxdur". Amma böyüklərin mənəm-mənəmliyi uşaq qığıltısını eşidilməyə qoymur.***

**Bax: səh.2**

*Səxavət Məmməd*

## Azərbaycan çox dəyərli ziyalısını itirdi



**Arif Rəhimoğlunu qiyabi olaraq tanıyırdım. Daha sonra İsveçdə, Yötebore şəhərində görüşmüşdük. Hakim icazə verməsə də, İsveçdə səfərdə olarkən görüşdük. Sözün əsl mənasında ziyalı, bilgili və ağsaqqal idi. Saatlarla söhbət etdik. Söhbətinə doyum olmurdu. Əsl ideoloq idi. Fikri, zikri ancaq böyük, azad və demokratik Azərbaycan görmək idi. Təkcə Azərbaycanı yox, yaşadığı ölkəni də çox gözəl tanıyırdı. Tarixini çox gözəl bilirdi. Bir neçə gün əvvəl danışmışdıq. Öləcəyini bilirdi. Sayılı günü olduğunu dedi. Arif bəy eldən, obadan getdi. Fikrimcə Arif bəy yeri doldurulmayacaq adamlardan idi.**

**Ailəsinə, yaxınlarına səbr diləyirəm.**

**Xatirəsi yaşasın!**

**İradə TUNCAY**
**iradetuncay@rambler.ru**

## Dağ çəkən Təpə



**Aprel ayıdı... Amma elə bir aprel ki... Elə yaz kimi aprel... Ağaclar çiçəkləyib, yağış da yağır hərdən... Xəbərləri dinləyən kimiyəm televizorun qarşısında. Qulağım bəzi sözləri çalır... Folklend-Malvin adaları deyir aparıcı... Hardasa okeandakı arxipelaq... Nəyimə lazımdı? "Cəhənnəmə olsun"- deyib keçəcək vaxtımdı. Özüm də yaz kimiyəm - 82-ci ilin aprelidi axı...**

***

**Bəşərin qardaşıdı müharibə. Lap əkiz qardaşı... Birlikdə doğulub-böyüyüblər .... ... İnsan gəlib dünyaya - sevmək, yaratmaq, harmoniyada olmaq üçün dünya ilə... Amma doğulandan ağrıyla, itkiylə dostdu...**

**Bax: səh.2**

## 45 yaşlı kişi qazı açıq qoyub yatdı



**Şamaxı rayonunda intihar baş verib. "Kriminalqafqaz"ın əldə etdiyi məlumata görə, rayonun Göylər kəndində yaşayan 1977-ci il təvəllüdlü Vəfadar Məmmədov özünü qazla zəhərləyərək intihar edib.**

Belə ki, mənzildə tək olan 45 yaşlı V.Məmmədov məişət qazını açıq qoyaraq yuxuya gedib. Daha sonra evə gələn yaxınları mənzilin qazla dolduğunu, V.Məmmədovun isə artıq vəfat etdiyini görüblər. Faktla bağlı Şamaxı Rayon Prokurorluğunda araşdırma aparılır.

## Kadırovun "sağ əli" Ukraynada öldürüldü



**Ukraynada Kadırov qruplaşmasının komandiri, Rusiyanın Qroznı şəhərindən olan Ruslan Əzizov (Stinqer ləqəbli) məhv edilib.**

Adalet.az xəbər verir ki, Stinqerin harada məhv edildiyi hələlik bildirilmir. Bu barədə müxalif çeçen bloger Xasan Xalitov "Telegram" kanalında məlumat verib. Xalitov Əzizovun məhv edilməsi barədə qohumuna məlumat verən kadırovçulardan birinin telefon danışığının dinlənilməsini yayıb. Əzizovun məhv edilməsi ilə bağlı məlumatı Odessa hərbi administrasiyasının spikeri Sergey Bratçuk da təsdiqləyib."Kadırovçuların özləri isə Stinqer ləqəbli komandirləri Ruslan Əzizovun ölümünü artıq təsdiqləyiblər",- deyə Sergey Bratçuk özünün "Telegram" kanalında yazıb.

## İran XİN ABŞ-a xəbərdarlıq edib

**İran sonsuza qədər səbr etməyəcək. Adalet.az APA-ya istinadən bildirir ki, bunu İran Xarici İşlər Nazirliyinin sözçüsü Səid Xətibzadə bu gün keçirdiyi həftəlik mətbuat konfransında deyib.**

O bildirib ki, Vyanada nüvə danışıqlarında baş verən proseslər ABŞ-ın yanaşmasına görədir.

"Amerika çalışır ki, nüvə müzakirələrində olan məsələləri öz daxili işlərinin girovluğunda saxlasın. İran və iranlılar səbirlidir, lakin sonsuza qədər səbr etməyəcəklər".

Xətibzadə bildirib ki, əgər ABŞ Vyana danışıqlarında razılıq əldə etmək istəyirsə, öz siyasi qərarını tez bir zamanda verməlidir.

## GÜNÜN LƏTİFƏSİ

Qarınqulu ehsanda o qədər yeyir ki, tərpənə bilmir. Qonşuları bunu araba ilə evinə aparmalı olurlar.

Qarınqulu gözünü açıb göydə ulduzları görür və arabaçıdan soruşur:

**-Orada nə yığıncaqdır?**

Arabaçı deyir:

**-Orada da ehsan verilir.**

Qarınqulu:

**-Onda arabanı ora sür.**

# Prezident Avropa Şurasının Baş katibini qəbul etdi



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 4-də Avropa Şurasının Baş katibi xanım Mariya Peyçinoviç Buriçin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**

Adalet.az xəbər verir ki, Prezident İlham Əliyev Avropa Şurasının Baş katibi statusunda Mariya Peyçinoviç Buriçi Azərbaycanda görməkdən məmnun olduğunu bildirdi və 2019-cu ilin aprellində Xorvatiyanın baş nazirinin müavini, xarici və Avropa işləri üzrə nazir qismində ölkəmizə səfərini və səfər çərçivəsində görüşlərini qeyd edib.

Dövlətimizin başçısı özünün Azərbaycan nümayəndə heyətinin rəhbəri kimi vaxtilə AŞPA-dakı fəaliyyətini xatırladıb. Prezident İlham Əliyev Azərbaycanın Avropa Şurası ilə əməkdaşlığının konstruktiv dialoq əsasında inkişaf etməsinin vacibliyi bildirərək, Avropa Şurasına üzvlük çərçivəsində ölkəmizin qanunvericilik bazasının müasirləşdirilməsi istiqamətində ardıcıl addımların atıldığını diqqətə çatdırıb.

Ölkəmizə səfər etməkdən məmnunluğunu bildirən Mariya Peyçinoviç Buriç Azərbaycanın Avropa Şurasında üzvlüyünün yüksək dəyərləndirildiyini dedi və üzvlük prosesi çərçivəsində ölkəmizin Avropa Şurasının çox sayda konvensiya və müvafiq sənədlərinə qoşulduğunu və bu əsnada işin aparıldığını bildirib.

Söhbət zamanı Azərbaycanla Avropa Şurası arasında 2022-2025-ci illəri əhatə edən Fəaliyyət Proqramının qəbul olunacağı məmnunluqla qeyd edildi və bu Proqramda bir sıra sahələrdə əməkdaşlığın nəzərdə tutulduğu vurğulayıb.

Prezident İlham Əliyev regionda yaranmış yeni vəziyyət, Azərbaycanın Ermənistanla münasibətləri normallaşdırılması üçün irəli sürdüyü təkliflər, həmçinin işğaldan azad olunmuş ərazilərdə mövcud vəziyyət barədə Avropa Şurasının Baş katibinə məlumat verib.

Dövlətimizin başçısı birinci Ermənistan-Azərbaycan müharibəsindən etibarən 3890 nəfər azərbaycanlının itkin düşdüyünü qeyd etdi və onların taleyinin müəyyənləşdirilməsi üçün Ermənistan tərəfindən kütləvi məzarlıqların yerləri haqqında məlumatın verilməsinin vacibliyini vurğuladı. İşğaldan azad olunmuş ərazilərdə Azərbaycanın mina problemindən ciddi şəkildə əziyyət çəkdiyini, 2020-ci il 10 noyabr Bəyanatından bəri 200-dən çox insanın minaların partlaması nəticəsində həlak olduğunu və ya yaralandığını diqqətə çatdırdı. Prezident İlham Əliyev bildirdi ki, 44 günlük Vətən müharibəsi dövründə Azərbaycan beynəlxalq humanitar hüququn təməl prinsiplərinə ciddi şəkildə riayət edib. Ancaq buna baxmayaraq, müharibə dövründə Ermənistan tərəfindən çox sayda hərbi cinayətlərin törədildiyini bildirən dövlətimizin başçısı hərbi əməliyyatlar zamanı Ermənistanın şəhərlərimizi raketlərlə atəşə tutması, nəticədə aralarında uşaq və qadınlar da olmaqla 100-dən çox mülki şəxsin həlak olması faktını vurğulayıb.

Prezident İlham Əliyev Avropa Şurasının da iki ölkə arasında etimad quruculuğu prosesinə və inteqrasiya olunmuş Cənubi Qafqaz regionunun qurulması işinə töhfə verə biləcək bir platforma rolunu oynaya biləcəyini qeyd edib.

Avropa Şurasının Baş katibi Azərbaycanın bu sahədə nümayiş etdirdiyi yüksək siyasi iradənin təqdir olunduğunu bildirib.

Mariya Peyçinoviç Buriç Avropa Şurasının Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşması və iki ölkənin cəmiyyətləri arasında etimadın qurulması prosesində platforma rolunu oynamağa hazır olduğunu qeyd edib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

# Prezident: “Edillidə kütləvi məzarlıq müəyyən olunub”

**Prezident İlham Əliyev İtkin düşmüş şəxslər üzrə Beynəlxalq Komissiyanın baş direktoru xanım Katrin Bombergeri qəbul edib.**

Adalet.az xəbər verir ki, dövlət başçısı bu yaxınlarda Xocavəndin Edilli kəndində kütləvi məzarlığın müəyyən olunduğunu, qazıntı işləri apararaq orada basdırılmış şəxslərin qalıqlarının aşkara çıxarıldığını və bu qalıqların DNT analiz təyinatlı laborator müayinələrə təqdim edildiyini diqqətə çatdırıb.

Prezident İlham Əliyev itkin düşmüş şəxslər məsələsinin daim dövlətimizin gündəliyində olduğunu, bunun Avropa İttifaqı və digər beynəlxalq təsisatlarla da müzakirə edildiyini vurğulayıb.

**Azərbaycanın bu sahədə texniki imkanlarını genişləndirdiyini qeyd edən dövlət başçısı ölkəmizdə yeni modul laboratoriyaların qurulduğunu, xüsusi dron uçuş aparatlarının və digər ləvazimatların alındığını, cəlb olunmuş mütəxəssislərin peşə qabiliyyətlərinin artırıldığını diqqətə çatdırıb. İtkin düşmüş şəxslər üzrə Beynəlxalq Komissiyanın təcrübəsinin və imkanlarının ölkəmiz üçün çox vacib olduğunu qeyd edib, bu komissiyanın dünyanın müxtəlif ölkələrində uğurlu fəaliyyət göstərdiyini diqqətə çatdırıb.**

# Putin İlham Əliyevi təbrik etdi

**Rusiya Prezidenti Vladimir Putin Azərbaycan Prezidenti İlham Əliyevi iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi münasibətilə təbrik edib.**

Adalet.az xəbər verir ki, təbrik mətni Kremlin rəsmi saytında dərc olunub.

”Son onilliklər ərzində yaxşı dostluq və qarşılıqlı hörmət ənənələrinə əsaslanan Rusiya-Azərbaycan münasibətlərinin inkişafı üçün çox işlər görülüb. Konstruktiv siyasi dialoq genişlənir, ticarət-iqtisadi, elmi-texniki, humanitar və digər sahələrdə səmərəli əməkdaşlıq edilir”, - V.Putinin təbrik mesajında bildirilib.

O vurğulayıb ki, keçən il və daha öncəki il bağlanmış üçtərəfli sazişlərə əsasən, rəsmi Bakı və Moskva Cənubi Qafqaz regionunda sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi üçün birgə işləyir.

”Bu il mühüm nailiyyətlə - Rusiya və Azərbaycan arasında Müttəfiqlərin Qarşılıqlı Fəaliyyəti haqqında Bəyannamənin imzalanması ilə əlamətdardır. Əminəm ki, ikitərəfli münasibətlərin yeni, keyfiyyətcə daha yüksək səviyyəyə çatdırılması xalqlarımızın fundamental maraqlarına cavab verir”, - Rusiya Prezidenti söyləyib. Vladimir Putin İlham Əliyevə möhkəm cansağlığı və uğurlar, bütün Azərbaycan vətəndaşlarına isə əmin-amanlıq və firavanlıq arzulayıb.

*İradə TUNCAY*

# Dağ çəkən Təpə

**Aprel ayıdı... Amma elə bir aprel ki... Elə yaz kimi aprel... Ağaclar çiçəkləyib, yağış da yağır hərdən... Xəbərləri dinləyən kimiyəm televizorun qarşısında. Qulağım bəzi sözləri çalır... Folklend-Malvin adaları deyir aparıcı... Hardasa okeandakı arxipelaq... Nəyimə lazımdı? ”Cəhənnəmə olsun”- deyib keçəcək vaxtımdı. Özüm də yaz kimiyəm - 82-ci ilin aprelidi axı...**

***

Bəşərin qardaşıdı müharibə. Lap əkiz qardaşı... Birlikdə doğulub-böyüyüblər .... ... İnsan gəlib dünyaya - sevmək, yaratmaq, harmoniyada olmaq üçün dünya ilə... Amma doğulandan ağrıyla, itkiylə dostdu...

Yaşadığı məkanı çəpərləyəndən, kandarını bəlli edəndən savaşır insan . Bunu yaşasa da dərk edə bilmir. Məşhur şeirdə deyildiyi kimi: əvvəl daş atıb yarıçılpaq, qədim insan... Niyə atıb? Sərhədi geniş olsun deyə? Bu gen dünyada bir az o yan-bir az bu yan artıq olacaq? Bu bir az üçün 100 illik müharibələr də olub, üç gün çəkəni də....

Hərbdə blits-kriq termini var. Sürətli müharibə... İldırım sürətli müharibə. İlk dəfə almanlar istifadə edib bu termindən. Anlamı budur ki, düşmən zərbələrdən özünə gələnəcən, səfərbər olanacan sən vurub keçirsən bütün manevləri... Günlər, həftələr, aylar ərzində olmalıdı... İkinci Dünya Müharibəsində Fransanın işğalı 44 gün, Polşanın işğalı 36 sutka çəkmişdi... Uğurlu əməliyyatlar...

***

82-ci ilin aprelində Britaniya öz sahillərindən 13 min kilometr uzaqda yerləşən, Argentinaya isə 400 kilometr məsafədə olan Folklend adalarına desant çıxarır. Səbəb isə Argentinanın adalara iddia edərək ora qoşun tökməsidi. Konfliktin tarixi bir əsr əvvələ dayansa da savaş məhz 1982-ci ilin aprelində başlayır. Tarixi ədalətsizliyə son vermək istəyir Argentina. Axı onlarındı bu adalar... Təbii ki, ingilislər belə düşünmür... Dünya iqtisadi böhran içindədi. Hər iki ölkədə narazılıq artmaqdadı və sadalamadığım bir çox səbəblər də var bunun içində. İlk günlər dünya konflikti sakit izləyir - BMT həmişəki kimi qətnamə qəbul edir, tərəfləri sülhə dəvət edir. Amma tərəf deyəndə Böyük Britaniyanı fikirləşsək, onda BMT qətnaməsinin nə qədər dəyəri ola bilər ki?!

***

Adanı Britaniya qarnizonunun əlindən alan argentinalılar ilk günlər eyforiyaya qapılırlar. Güman edirlər ki, artıq Britaniyanın dünya siyasətində əvvəlki nüfuzu yoxdu... Amma unutdum deyəm ki, həmin vaxt baş nazir Marqaret Tetçer idi axı... Hikkəli xanım öz ölkəsinin prestijini yerə vura bilməzdi. Donanma və aviasiya artıq adalara yaxınlaşmaqda idi. Adaların blokadası başlayırdı. İlk olaraq ingilislərin sualtı qayığı Argentinanın kreyserini batırır - 323 dənizçi həlak olur gəmidə. Bu şərtlər daxilində dənizdə uğur qazana bilməyəcəyini anlayan argentinalılar aviasiyaya üstünlük verirlər. Elə fikirləşirlər ki, aviasiya zərbələri, insan itkisinin çoxluğu Britaniyanı geri çəkilməyə məcbur edəcək... Bu düşüncəyə ancaq gülmək olar. İnsan itkisi haqqında düşünən ölkə dünyanın yarısını fəth edə bilməzdi... İyunun sonuna qədər davam edir bu qeyri-bərabər savaş...74 gün ... Nəticə isə...

***

Adalar üzərində Böyük Britaniyanın hakimiyyəti qeyd-şərtsiz təsdiq olunur (qarşı tərəf narazı olsa da ).

***

İtkilər - Böyük Britaniya: 248 əsgər həlak olur, 2 freqat, 2 esminets, 1 desant gəmisi, 1 desant kateri, 1 konteyner daşıyan batırılır, 34 təyyarə və vertolyot vurulur.

***

Argentina: 649 nəfər həlak olur (19 pilot), 11 minə yaxın əsir düşür (minalanmış sahələri təmizləmək üçün əsirlərdən istifadə olunur), 1 kreyser, 1 sualtı qayıq, 1 gözətçi qayığı, 4 nəqliyyat gəmisi, 1balıqçı trauleri batırılır, 22 hücumçu, 11 qırıcı təyyarə vurulur (ümumilikdə 100-dən çox təyyarə və vertolyot. Demək olar ki aviaparkın hamısı).

***

1982-ci ilin oktyabrında Londonda parad keçirilir. Tetçer qələbəsini qeyd edir. O, öz yüksəkliyini vətənindən 13 min kilometr uzaqlıqda olan bir adada fəth etmişdi. Özü orda olmasa da... Argentinalıların isə mənliyi tapdanır.... 2014-cü ilin oktyabrında Argentinada çəkiliş edən Britaniya televiziya proqramı qrupuna Folklend müharibəsi veteranları hücum edirlər, əzilmiş heysiyyətlərinə toxunduqları üçün. Jurnalistləri polis konvoyu ilə ölkədən çıxarıb Çili sərhədinə ötürürlər...

***

Tarixçilərin yazdığına inansaq, İkinci Dünya Müharibəsindən sonra yeganə savaşdi ki , hərbi-dəniz qüvvələrinin irimiqyaslı hücumu savaşın nəticəsini həll edib.Və burda bir çox hərbi ilklər də olub...

Və yaxşı yadımdadı, 1982-ci ilin iyununda İspaniyada dünya çempionatı keçirilirdi futbol üzrə.

Həmin çempionat Maradonanın ulduz saatının başlanğıcı idi. Və Argentina millisinin futbolçularından birinin qardaşı Folklend adalarında həlak olmuşdu. Çıxdı amma meydana, öz oyununu oynadı... Tale başqa oyun oynasa da...

1986-cı ilin iyununda Maradona ”əsrin qolu” adlanan bir qol vurur yumruğuyla ingilis komandasının qapısına - əl ilə vurulsa da qolu sayırlar. Maradona ”bu Tanrının əliydi”- deyir... Çox illər sonra isə Folklend məğlubiyyətinin revanşı adlandırır....

***

Müharibə haqqında söz demək haqqını qanlı səngərlərdə qazanmış savaş müxbirlərinin yazdıqlarını oxudum təkrar.Tolstoyun, Heminqueyin, Ekzüperinin... Tolstoy deyir ki, insanlar görüşəndə bir birinə ”salam olsun ” (mir vam) deyirlər. Müharibə yaranışa, insan təbiətinə zidd bir şeydi... Ekzüperi deyir ki, ev üçün ölmək olar, içindəki əşyalar və divarlara görə yox... Məbəd üçün ölmək olar, daşlar üçün yox... Xalq uğrunda ölmək olar, kütlə uğrunda yox... Heminquey isə deyir ki, savaş vaxtı yalan danışmaq ehtiyacı yaranır... Yaranıbsa, bunu tez və gözəl təqdim eləmək lazımdı... Yenə Heminqueydən: ”O zaman ki insanlar öz torpaqlarını işğalçılardan azad etmək üçün döyüşürlər, o zaman ki həmin insanlar sənin dostlarındı - köhnə, ya da təzə və sən bilirsən ki, hücum hardan olub, cavab hardan gəlib, silahsız, əliyalın insanların ölüm-qalım savaşı necə olub - anlayırsan. Anlayırsan ki, müharibədən dəhşətli də nəsə var. Qorxaqlıq daha dəhşətlidi, xəyanət daha dəhşətlidi, eqoizm daha dəhşətlidi”.

***

Yazıçı kimi deyiblər bu sözləri, amma vətəndaş kimi döyüşüblər... Gündəlik yazarlar savaşı banal hadisəyə çevirməyə cəhd edir bəzən. 19 yaşlı bir gəncin taleyüklü məqamlarda məsuliyyət hissini anlaya bilmir. Ordunu, ordakı insanları, ordu həyatını sevməyi bacarmır... 1941-1945-ci il müharibəsində orduya gedən yüz nəfərdən ancaq üçü salamat qayıda bilmişdi...Mən də istərdim ki, güllələr yox, güllər açılsın... Aprel aprel kimi gəlsin.... İnsanlar da öz yaşlarının baharını yaşasın...Əgər buna imkan vermirlərsə, necə olsun bəs? Əcəl zəngi çalınırsa, necə olsun? Əlvida, silah- deməyə tələsməyək, irəlidə yeni döyüşlər gözləyir bizi... Bitməmiş müharibə və formalaşmamış insan cəmiyyəti.

...Sevmədim mən bu uzun illəri. Yəni illər onsuz da uzun olur da, amma fevral ki, 29 gün oldu - mən əzəl gündən itkilər haqqında düşünməyə başlayıram. Belə bir takıntım var.....

***

**...Bir Təpə hamımızın üstündən yüksəlib Dağa dönür... Dağ çəkir Təpə... Və savaşı Vətən müharibəsinə döndərə bilir...**

**Yazarın arxivindən**
**15-04-2016**

*Aqil ABBAS*

# KƏSSƏ HƏR KİM TÖKÜLƏN QAN İZİNİ, QURTARAN DAHİ ODUR YER ÜZÜNÜ

***Rusiyanın apardığı işğalçı müharibə nəticəsində Ukraynanın şəhər və kəndləri Ağdamın gününə düşüb. Mariapolun indiki vəziyyətinin şəklinin yerinə Ağdam şəhərinin şəklini qoysan o qədər də böyük fərq etməz. Əhalisi də elə ağdamlıların günündədi. Xalq da baş götürüb yarısı Rusiyaya, yarısı Avropa ölkələrinə qaçır. Atılan raketlər, bombalar baxmır bu uşaqdı, qadındı, qocadı. Bir sözlə, müharibə dəhşətdi. Biz bunu görmüşük, ona görə də dünyanın harasında müharibə olsa o ağrını yenidən yaşayırıq.***

***Hüqo deyir: "Dünyada uşaq qığıltısından böyük himn yoxdur". Amma böyüklərin mənəm-mənəmliyi uşaq qığıltısını eşidilməyə qoymur.***

***ABŞ və NATO ölkələri eyni dinə, eyni dilə, eyni mədəniyyətə, eyni tarixə malik olan iki qardaşı bir-birinə qırdırır. Və iki qardaşı bir-birinə qarşı elə nifrətə kökləyib ki, uzun illər bu nifrət onların ruhundan çıxmayacaq. Avropa ölkələrinin hamısı dırnağını bir-birinə sürtür, nə veclərinə, ölən ukraynalıdı, ya rusdu.***

***Belə bir vaxtda bir türk dövləti və o dövlətin sayın cümhurbaşkanı Rəcəb Tayyib Ərdoğan girib bu qardaş qırğınının arasına müharibəni dayandırmaq, onları aralamaq istəyir.***

***Ağdamda bir Peti İsmayıl vardı. Deyirdi ki, iki dalaşanın arasına girib ayırmağa çalışmayın, arada şillə-təpik də sizə dəyəcək, bıçaq da sizə dəyəcək, məhkəmədə də ilk şahid sizi çağıracaqlar.***

***Peti İsmayılın sözü olmasın, Türkiyə elə həmin vəziyyətdədi, girib araya, ona şillə-təpik dəyir, o da bıçaq yarası alır. Üzvü olduğu NATO-nun və ABŞ-ın bütün təzyiqlərinə baxmayaraq, geri çəkilmək istəmir. Və yəqin ki geri də çəkilməyəcək.***

***Sözə bax ey, ABŞ deyir ki, Rusiyadan aldığın S-400-ləri ver Ukraynaya. Duxun çatır özünün "Patriot"larını ver də Ukraynaya. O "Patriot"ları ki heç Türkiyəyə qıymadı.***

***İnşallah, bu müharibənin qalibi müharibəni kəsən ölkə olacaq - Türkiyə olacaq! Sayın Rəcəb Tayyib Ərdoğan olacaq!***

***Oxuyuram ki, təklif edirlər ki, Ərdoğana Nobel Sülh mükafatı verilsin. Deyəsən "Yeni Müsavat"ın əməkdaşı Elşad Paşasoy yazmışdı bunu.***

***Verməzlər, dostum. Nobel Sülh Mükafatı verənlər müharibənin daha da şiddətlənməsini istəyir, kəsilməsini yox. Sayın Ərdoğanın ən böyük mükafatı bu dünyanın göz yaşlarına dəyməyən uşaqların qığıltısı olacaq. Dünyanın ən böyük himni.***

*Vüqar Abbasov,*
*Niderland*



# Ordakılar öküzün sakitləşməsini istəmirlər

**Yəqin ki, çoxlarımız nə vaxtsa korridanı (İspaniyada keçrilən məşhur öküz /buğa döyüşləri) tv - dən izləmişik. Qısa olaraq belə təsvir etmək olar:**

**Qızmış bir öküzü/buğanı buraxırlar meydana və matador onu öldürməyə çalışır. Korrida iştirakçılarının sayı müxtəlif olur. Öküz matadorun üstünə cumanda isə digər iştirakçılar (torero) öküzün diqqətini özlərinə cəlb etmək məqsədilə meydana atılır və öküzə rəngli bir şeylərər göstərərək öküzün diqqətini özlərinə çəkməyə çalışırlar. Bəziləri isə nizənin ucu ilə öküzü daha da qıcıqlandırmağa cəhd edir.**

**Uşaq olanda, uşaq sadəlöhvlüyü ilə atamdan soruşardım ki, bunlar öküzü niyə hirsləndirlər? Meydandan çıxsınlar, öküz ora-bura vurnuxub sakitləşəcək də. Atam da deyirdi ki, bala, bunlar öküzün sakitləşməsini istəsələr belə edərlər. Ancaq ordakılar öküzün sakitləşməsini istəmirlər, ona görə də hərəsi bir tərəfdən öküzü qıcıqlandırırlar.**

**Böyüdükcə baxdım ki, həyat çox vaxt elə korrida kimidir; bəzilərinin əlində ”rəngli paçalar”, bəzilərində ”nizələr” və bunlar oyunun iştirakçılarıdır, aralarında yaxşı pul qazananlar da var. Aldıqları ”yaralar” da onlar üçün sadə bir şeydir. Ancaq ”qızmış öküz(lər)” bəzən qurulmuş sədləri aşaraq camaatın (izləyicilərin) də üstünə cumurlar. Mənə elə gəlir ki, bəzən sədlər bilərəkdən zəif qurulur ki, tamaşa daha da maraqlı olsun.**

***P.S.** Siyasətlə heç bir əlaqəsi yoxdur və bu da olsun ”eləbelə” silsiləsindən*

## *Rusiya və Belarusun tam təcridi hazırlanır*



**Polşa, Latviya, Litva və Estoniya yaxın 48-72 saat ərzində Rusiyaya qarşı tam təcrid prosesinə başlayacaq. Bununla da Rusiyaya malların çatdırılması üçün quru yolları bağlanacaq.**

Bunu Ukraynanın infrastruktur nazirinin müavini Mustafa Nayem Teleqramda yazıb.

”Keçən həftə biz rəsmi olaraq həmkarlarımızdan Rusiya və Belarus ilə istənilən avtomobil əlaqəsini dayandırmağı xahiş etdik. Bu ölkələrin nəqliyyat nazirlərinə təşəkkür edirik. Yekun nəticəni gözləyirik”, - Nayem bildirib. Onun sözlərinə görə, müsbət qərar qəbul olunarsa, Rusiya və Belarusun Avropa sərhədləri tamamilə bağlanacaq, bu isə o deməkdir ki, avtokommunikasiya və daşımalar qeyri-mümkün olacaq.

**MEHRİBAN**

# *Bir daha Jirinovskidən miras qalan Delyagin və Şerin cütlüyü*





**Azərbaycan İctimaiyyəti onu Rusiya dövlət telekanalında - ”Rossiya 1” dəyayımlanan ”60 dəqiqə” verilişində ölkəmizə qarşı təhdidlər səsləndirdikdənsonra tanıdı.Rusiya-Ukrayna müharibəsinin şərh olunduğu proqramda mövzu birdən-birə Qarabağda baş verən son hadisələrə tərəf yön dəyişdirdi və elə buzaman Dövlət Dumasının deputatı Mixail Delyagin ”Azərbaycanı bombalayaq” deyə təkliflə çıxış etdi. Xalqımız deputatın belə həyasızcasına çıxışına etiraz etdi, dövlətimiz də onun haqqında tədbir gördü. Delyagin İnterpola verildi.**

Düzdür, onun belə sərsəm bəyanatı Rusiya cəmiyyətinin özündə də ciddi narazılıqla qarşılanıb. ”Telegram”da Rusiyanın ən məşhur siyasi kanallarından olan ”Kremlovskiy mamkoved” Mixail Delyaginin təcavüzkar bəyanatını Azərbaycan-Rusiya dostluğuna zərbə kimi qiymətləndirib.

”Qonşularla dostluğun əleyhinə çıxış edən və Azərbaycana zərbə endirmək tələbini qoyan Dövlət Dumasının İqtisadi siyasət komitəsinin sədrinin müavini Mixail Delyagin öz maraqları naminə Bakı ilə münasibətləri korlayır. Delyagin Rusiyadakı erməni diasporunun onun şəxsi varlanmasını təmin edə biləcəyi barədə qayğısını ölkənin milli maraqlarından üstün tutur. Halbuki, Azərbaycan Rusiyanın əsas müttəfiqlərindən biridir: LDXR-in tanınmasına bir gün qalmış, əməkdaşlıq barədə müqavilənin imzalanması üçün Əliyev Moskvaya gəldi, beynəlxalq təşkilatlarda Bakı Rusiyanın əleyhinə səs vermir və neytrallıq nümayiş etdirir”,- ”Kremlovskiy mamkoved” yazdı.

***Amma ”Ədalətli Rusiya-həqiqət uğrunda” partiyasından Delyagini biz yeni tanıdığımıza baxmayaraq, dünya ictimaiyyəti onun namərdliyinə çoxdan şahiddir.***

***Onun Rusiya mətbuatındakı məqalələrinə. çıxışlarınanəzər saldıqda aydın olur ki,o Rusiyadan başqa dövlətə, rus xalqından başqa digər xalqa hörmət etmir.***

***Rusiya- Ukrayna müharibəsinin ilk günlərində onun Ukraynayla bağlı çıxışına diqqət edək:***

***”Rusiyaya real hücum təhlükəsi var, onları buna hazırlayırlar. Ukraynada insanları itaətdə saxlamaq kifayət qədər çətindir. Yeganə variant müharibədir”, - Delyagin bildirib.***

Delyagin təklif etdi ki, hücuma Krımla yanaşı, Rostov, Belqorod və ya Bryanskdan başlamaq olar.

Qeyd edək ki, az bir müddətdə Azərbaycanı təhdid edərək-Qafqazda böyük bir tanıtım qazanan Delyagindən sonraRusiya Dövlət Dumasının üzvü, siyasətçi Aleksandr Şerin də eyni ”taktika”nı təkrar edib.

Şerin Tokio və Bakının”Kalibr” və ”İskəndər”lə qarşılaşa biləcəyini müsahibəsində söyləyib: ”Əgər kimsə bizim güclü və zəif tərəflərimizi hiss etməyə çalışırsa, o zaman yaxşı işləyən ”Kalibr” və ”İskəndər”lərlə hiss edəcək.

Buna görə də, bu bəyanatlar yalnız gələcəkdə Rusiyaya təzyiq etmək şansı olmayan bu ölkələrin daxili seçiciləri üçün edilir”.

***P.S.** Görünən odur ki, RusiyaDövlət Dumasında təyinatına görə uğur qazana bilməyən, heç bir yeniliyə inkişafa töhvə verə bilməyənbəzi deputatlar məsuliyyətsiz açıqlamalarla ”mən də varam” görüntüsü yaratmaqda israrlıdırlar.*

**Əntiqə Rəşid**

# Ermənistanın Rusiyaya verdiyi döyüş təyyarələri dinc ukraynalıları qırmaq üçündür: Dünya yenəmi susacaq?

**200 il əvvəl himayədarı Rusiyanın əli ilə torpaqlarımıza köçürülən, burda dövlət olan erməniləri bu illər ərzində necə bir toplum olduğunu yenidən yazmağa ehtiyac duymuram. Düz 200 ildir ermənilər Azərbaycan və Türkiyə haqqında yalanlar danışır, təxəyyül məhsulu hekayələr yaratdılar.**

Dünya da sevə -sevə bu yalanlara inandı. İnanmasaydı, qondarma, tarixi sübutu-faktı olmayan "erməni soyqırımı" yalanlarını araşdırmadan bu soyqırımı dövlət səviyyəsində tanımazdı Dünyanın 100 yaxın ölkəsi Türkiyəni "cəzalandırmaq" üçün "erməni soyqırımını " tanımaq üçün yarışa girdi. Amma Azərbaycanın torpaqlarını hissə-hissə mənimsəyən Ermənistanın Xocalıda dinc azərbaycanlıları xüsusi amansızlıqla qətlə yetirməsini, iyirmici əsrin ən böyük insan fəlakətini , dini, dili irqinə görə qətl edilməsini görməzdən gəldi. Azərbaycanın haqq savaşı, haqq tələbi, 26 il BMT Təhlükəsizlik Şurasının masası üstündə yatdı-qaldı. Dağlıq Qarabağ münaqişəsilə bağlı həmin qətnamələr erməni uydurmalarının fonunda yenə görməzdən gəlindi. Əslində anlamaqda çətinlik çəkirəm, ermənilərmi iftiranı, yalanı mükəmməl söyləyib həqiqəti gözlərdən yayındırdılar yaxud dünya Azərbaycanın eləcədə Türkiyənin əsl gerçəyini görmək istəmədi.

Martın 19-da isə İrəvanda mindən çox şəxsin iştirakı ilə Rusiyanın Ukraynadakı hərbi əməliyyatlarına dəstək mitinqi keçirildi. Ermənistan və Rusiya bayraqlarının dalğalandırıldığı aksiyada Rusiya səfirliyinə istiqamətində yürüşlər başladı. Mitinqdə Rusiyanı dəstəkləyici şüarlar səsləndirildi, İkinci Dünya müharibəsinə həsr olunmuş mahnılar oxundu. Bununla iştirakçılar diplomatik missiyanın əməkdaşlarına dəstəklərini ifadə etdilər.

Bu arada erməni mediası yazdı ki, Qarabağ separatçılarının "siyasi qüvvələri" Xankəndidə qondarma "Donetsk və Luqansk xalq respublikaları"nın tanınması hüququnun müdafiəsi üçün aksiya keçirdi. Bundan sakitləşməyən ermənilər Rusiyanın gözünə "girmək " üçün daha "qabarıq" yollar axtarıb tapmağa çalışdılarvə tapdılar.

"Vahid Ermənistan" partiyasının lideri, "Erməni Qartalları" könüllü dəstəsinin komandiri, erməni polkovnik Xaçik Asryan öz sosial şəbəkə hesabında erməni xislətinə uyğun bir paylaşım etdi.O, "44 günlük müharibə"də Azərbaycana hərbi, iqtisadi və mənəvi dəstək olan Ukraynaya qarşı döyüşə hazır olduğuna dair məlumat yaydı.Hətta Xaçik Asryan artıq bu müraciəti ilə bağlı hazırlıqlara başladığını bəyan etdi. Dəstə başçısı müvafiq məktubu Moskvanın Ermənistandakı səfiri Sergey Kopırkinə təqdim etdi. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və törətdiyi terror aktlarında fəal iştirak edən erməni terrorçular, rusiyameyilli və irqçi baxışları ilə fərqlənən "Erməni qartalları" Rusiya Prezidenti Vladimir Putinə müraciətdə birbaşa Donbasa getmək üçün izn istədilər. Sonuncu dəstək Rusiya işğalına qarşı birləşmiş dünyanın səbr kasasını doldurdu. Ermənistan Ukrayna ilə müharibədə Moskvaya dəstək üçün Rusiyaya hərbi pilot və təyyarələrini göndərib. Ermənistan bunu yalanlamağa, belə bir dəstəyin olmadığına dünyanı inandırmağa çalışsa da alınmadı. Adalet.az Haber Qlobal-a istinadən bildirir ki, dörd ədəd Su-30 tipli döyüş təyyarəsi martın 25-də Ermənistandan qalxaraq Ukraynadan istifadə olunmaq məqsədilə Rusiyaya yola düşüb. Bundan əlavə, Rusiya istehsalı qırıcıları xüsusi təlim görmüş erməni pilotlar idarə edəcək. Beləliklə, Ermənistan bu addımla Ukraynada işğala şərik, müharibənin isə tərəfi olub və növbəti dəfə regional sülhün yerinə münaqişəyə xidmət edib. Kəşfiyyat məlumatlarında oda üzə çıxıb ki, Ermənistan eyni zamanda suriyalı döyüşçülərin Ukraynaya göndərilməsində də rolu böyükdür. Muzdlu döyüşçülər Ermənistandakı Erebuni aviabazasında yığılaraq oradan Rusiyanın Şimali Osetiya Respublikasındakı Mozdok şəhərinə yola düşür. Oradan da Rusiya əsgərləri ilə birlikdə Ukraynaya göndərilir. İlk olaraq "Haber Global"ın yaydığı bu gerçəklərin ortaya çıxmasından iki həftə sonra Rusiya Ukraynaya Orta Şərqdən hərbçi yollayacağını rəsmən bəyan edib. Daşınmalar davam edir.

Martın 25-də iki ədəd "İL-76" tipli hərbi karqo təyyarəsi də Suriyadan qalxaraq İran və Xəzərdəki neytral ərazi üzərindən Rusiyaya yola düşüb.

Hazırda Rusiyaya dəstək verən Ermənistana da sanksiya tətbiq edilib-edilməyəcəyi və ya xəbərdarlıq olunub-olunmayacağı diqqət mərkəzindədir. Gözləyək görək beynəlxalq aləm, ermənipərəst dövlət başçıları heç olmasa bu dəfə Ermənistanı cəzalandıracaqmı?

***P.S.** Ataların belə bir misalı var, su səhəngi suda sınar. Deyəsən, "səhəng" sınıb...*

**Əntiqə Rəşid**

# Sosial şəbəkənin baltaçıları

İnsan övladı yaranandan oda və komaya ehtiyac duyub!

Vəhşi heyvanlardan və soyuqdan daldalanmaqdan ötrü mağaralara sığınıb, meşədən yığdığı quru ağac budaqları ilə od qalayıb, isinib, daha sonralar həmin odda özünə xörək də bişirib.

İnsanların sayı artdıqca təbii mağaralar azlıq edib, daha böyük tonqallar qalanmasına ehtiyac duyulub.

**Baltanın kəşfi qədim insanların həyat təminatlarının yaxşılaşdırılmasında mühüm rol oynayıb.**

**Belə ki, əvvəlcə daş, daha sonra dəmir baltaların meydana gəlməsi insanların işini xeyli asanlaşdırmışdır.**

*Qəbilə halında ömür sürən insan dəstələri meşədən baltalarla ağac kəsir, özlərinə qazma şəklində və digər formada evlər tikir, istiliyə və oda ehtiyaclarını daha asanlıqla təmin edirdilər.*

*O zamandan balta insanların ən sevimli və etibarlı alətinə çevrilmişdir.*

*Bu gün də insanlar baltanı əldən yerə qoymayıblar!*

***

Tarixin müəyyən dönəmində ”baltaçılar dəstəsi” də meydana gəldi.

Həmin baltaçılar meşədən ağaclar kəsir, ondan kömür hazırlayaraq, yaxud oduncaq kimi sataraq özlərinə çörəkpulu qazanırdılar.

Təbii qazın məişətimizə möhkəm daxil olması, habelə ekologiyanın, meşələrin qorunmasına diqqətin artırılması ”baltaçılar dəstəsi”ni tarixin arxivinə göndərmiş oldu.

**Bu gün isə yeni ”baltaçılar dəstəsi” peyda olub və çox fəal şəkildə ”fəaliyyət” göstərir.**

Əvvəlcə baltaçıların iş xüsusiyyətləri barədə bir vacib məqama diqqət çəkirik.

”Briqada” şəklində çalışan baltaçılar çox olsalar da, işləmə qaydaları eynidir.

Yəni nə qədər ki, ağac öz yerində dik dayanıb (ayaq üstə) onu yıxmaq üçün bir, uzaqbaşı iki nəfər balta vurur!

Çünki bir dəstə adamın bir ağacı baltalamağı praktik cəhətdən mümkün deyil!

Əks halda bir-birlərinə xətər yetirərlər!

*Amma ağac kəsilib yerə yıxılan kimi cəmi baltaçılar cumur onun üstünə!*

*Ağac boyu düzülərək kimi qol-budağını kəsir, kimi də doğrayaraq hissələrə bölür!*

*Belə əlbir iş uğurlu və səmərəli alınır!*

***

Atom, informasiya, texnologiya, internet əsrinin baltaçıları isə bambaşqadır!

Əslində onlar baltaçı üslubunda çalışan ”yeni nəsil baltaçı”lardır!

Ən sevimli məşğuliyyətləri isə sosial şəbəkədə yetənə yetib, yetməyənə bir daş atmaq, kiminsə kiməsə iddiasına dəstək vermək, şərhlər formasında bilmədikləri məsələlər barədə ”ekspertlik” etmək, adamlara şəbədələr qoşmaq, bu yolla özlərinin mövcudluqlarını gözə soxmaqdır!

Baltaçılar üçün fərqi yoxdur - yıxılan kimdir:

* ziyalıdır;
* alimdir:
* məmurdur:
* deputatdır:
* iş adamıdır:
* sənətkardır...

Təki tanınmış sima olsun!

Təki əlindən böyük və ya balaca bir xəta çıxmış olsun!

Təki ayağı büdrəyərək ələ fürsət versin!

Dərhal tökülüşürlər həmin yıxılmış ”ağacın” üstünə:

*Vur ki, vurasan!*
*Qır ki, qırasan!*
*Söy ki, söyəsən!*
*Döy ki, döyəsən!*

Söz baltası iti də, küt də ola bilər!

Dəxli yoxdur, hamısı həvəslə döşəyəcək!

**Axı ələ yeni fürsət düşüb!**

**Axı özünü göstərib sən də tanına, fərqlənə bilərsən!**

Ən əsası, bu vəziyyətdən istifadə edərək yenidən gündəmə gələ bilərsən!

Vacib deyil ki, haqlı olasan!

Vacib deyil ki, düz danışasan!

Vacib deyil ki, ədalət sənin dediyindədir!

Vacib deyil ki, şər, böhtan atırsan!

Vacib deyil ki, sənin yerə yıxılmış, yaxud büdrəmiş adam barədə söz söyləməyə mənəvi haqqın belə çatmır!

**Əsas odur ki, baltaçılar arasında sən də varsan!**

**Əsas odur ki, sənin də baltan işləyir!**

**Əsas odur ki, heç zaman açıq deməyə kişiliyin çatmadığı sözü indi xora qoşularaq söyləyə bilirsən!**

*Bu ”baltaçıların” nəzərində bir nəfər də təmiz, düz-əməlli, əməlisaleh insan yoxdur!*

* Əgər hədəf məmurdursa, deməli, rüşvətxor və korrupsionerdir!

* Əgər hədəf deputatdırsa, deməli, ”saxta yolla seçilib” və mandatını geri qaytarmalıdır!

* Əgər hədəf həkimdirsə, deməli, xəstələrin cibinə girəndir!

* Əgər hədəf alimdirsə, deməli, yazdığı dissertasiyalar saxtadır, plagiatdır!

* Əgər hədəf vəzifəli şəxsdirsə, deməli, birmənalı şəkildə nifrətə layiqdir, çünki insanlara həmişə pislik edir!

**Xülasə, bu baltaçıların nəzərində hamı yaramazdır, hamı cəzaya layiqdir və indi əməllərinin əvəzi verilməlidir!**

***

Həyatda kimsə ya qəsdən, ya da təsadüfən cinayət törədə bilər...

Bir də görürsən ki, iyləyib-çiyləyib ”tapırlar” ki, bu, filankəsin, məsələn, hansısa məmurun, deputatın, yaxud vəzifə sahibinin əmisinin xalası nəvəsidir və s. və i.a.

Cinayət törədən qalır bir yanda, tanınmış simanın adını belədən-belə hallandırırlar, belədən də belə!

Heç gör dəxli var!

*Biz sovet quruluşunu həmişə ona görə qınamışıq ki, atanı ”xalq düşməni” çıxaran kimi, onun arvadını, uşaqlarını da türməyə salır, ya da sürgünə göndərirdilər!*

*Sonra yeddi arxa dönənini çarmıxa çəkirdilər ki, sənin filankəsin, yaxud bəhmənkəsin xalq düşməni olub!*

*İndi bu sovet ənənəsini dirçəltməyin, ”qırmızı terrorun” üsullarını yenidən tətbiq etməyin yeridirmi?!*

*Hərənin öz adı, öz əməli var!*

*Hər kəs də törətdiyi əməlinə görə cavab verməlidir!*

*Daha bu ”yapışdırmağa”, cinayətə zorla ”şərik” qoşmağa nə hacət?!*

***

**Sosial şəbəkə bir platformadır, bir söz meydanıdır!**

**Niyə bu məkanı qisas yerinə, ”baltaçılar” məskəninə çevirməliyik!**

**Bir-birinə xoş söz söyləmək, ad və bayram günlərini təbrik etmək, uğurlardan xəbər tutub sevincini bölüşmək, çətinliklə qarşılaşana mənəvi dayaq durmaq daha məqbul və insani yanaşma deyilmi?**

* Niyə söz azadlığını söz azğınlığına çevirib kiməsə söz yarası vurmaqdan zövq almalıyıq?!

* Niyə insanların yaxşı tərəflərini, gördükləri xeyirxah işləri unudaraq ancaq ”pisliklərini” yadda saxlamalı və çətin günlərdə onlara qarşı ”baltaya” çevirməliyik?!

* Niyə yıxılanlara balta çalmaqdan bu qədər ləzzət alaraq, bir dəfə də olsun özümüzü ədalətsizcəsinə hədəfə çevrilənlərin yerinə qoymuruq?!

* Niyə hamıda və hər kəsdə pislik tapmağa və kiməsə mənəvi zərbə vurmağa bu qədər hərisik?!

Axı nə vaxtsa özümüz də yalan ya gerçəkdən həmin ”baltaçalanların” əlinə düşə bilərik!

**Bəlkə ədalətsiz hücumların naqisliyini özümüz hədəfə çevrilməmiş dərk edək?**

**Bəlkə azad sözdən xoş niyyətlə, qərəzsiz istifadəyə üstünlük verək?!**

*Onsuz da baltalamağa həmişə vaxt və imkan var!*

Onsuz da kifayət qədər baltaçılar var!

Bəlkə ədalətlilərin, xeyirxahların sırasına qoşularaq belələrinin sayını artıraq?!

Axı söz yarası çətin sağalan yaralardandır!

**Bəxtiyar SADIQOV,**
**“Azərbaycan”,**
**1 aprel 2022**

---

*Faiq QİSMƏTOĞLU*
*faiqqismetoqlu@box.az*

## Mənim dərdlərimin ayaqları var...



***...Dünyada elə bir insan yoxdu ki, dərdi olmasın. ”Qurani-Kərim”də də buyurulur ki, bütün canlılar ölümü dadacaqlar. Əlbəttə, istər padşah ol, istərsə də nökər. Günlərin birində qapın döyüləcək və Allahın mələklərindən biri olan Əzrail gəlib səni aparacaq yaradanın dərgahına. Amma baxır biz onun dərgahına hansı əməllərə gedəcəyik. Ev yıxmışıqsa, qan tökmüşüksə, kiminsə haqqına girmişiksə, təmiz və namuslu adamlara şərböhtan demişiksə, kasıb və yetimlərin başına qapaz vurmuşuqsa, bax, günahımız xirtdəyə qədərdi. Özü də elə-belə günah deyil, böyük günahdı. Böyük günahlar isə bağışlanılmır. Ən yaxşı halda yaxşı əməllərinə görə nəsə sənə bir güzəşt edilə bilər...***

***Ancaq yaxşı işlər görən yetimə, yesirə arxa duran, kimsəsizləri sevindirən, qazandığı var-dövlətdən hər dəfə kimlərəsə pay verən insanlar Allah-Təalanın yanında üzü ağdılar. Başqa sözlə demiş olsaq, onların sağ əlinə verilən əməl dəftəri bir daha təsdiq edəcək ki, bu insanlar Allahın qoyduğu yolla gediblər. Amma əməl dəftəri sol əlinə verilənlərin vəziyyəti çox ağır olacaq.***

***Ən azından sorğu-sual zamanı günahları bir-bir üzünə deyiləcək. Hər halda biz Ulu yaradanın işinə qarışmaq istəmirik. Hər şeyi onun ixtiyarına buraxırıq. Vaqif Bayatlı Odərin təbirincə demiş olsaq, ”Yer üzü həqiqətləri Allahın yanında puç olacaq və hər şey Ulu yaradanın hüzurunda bərqərar ediləcək”. Yəni, haqq-ədalət də, insanın əməlinə mükafat da böyük yaradanın hüzurunda veriləcək.***

***Yazımızın əvvəlində demişdik ki, dünyada dərdsiz adam yoxdur. Elə bir adam yoxdur ki, çəkə biləcəyi dərddən ağır qəm görməsin. Elə burda böyük Musa Yaqubun bir beyt şeiri yadıma düşür.***

***Mənim dərdlərimin ayaqları var***
***Harda olsa gəlib tapacaq məni...***

***...Dərd də belədir. Kimliyindən asılı olmayaraq həmişə onu axtarıb-tapır, güclü adamlar o dərdə tab gətirir, zəiflər isə bu qəmin, bu aləmin içində boğulurlar. Amma Allah-Təala adama dərd verdiyi kimi, həm də böyük bir səbir də verir. Ümumiyyətlə, qurban olduğum Ulu Yaradan öz bəndəsinə həmişə mərhəmətli olur. Başqa sözlə demiş olsaq, bəndəsi onu unutsa da, yaradan onu yaddan çıxarmayıb və unutmayıb.***

***İnsanları bu dünyada yaşadan onun yaxşı və pis əməlləridi. Və biz insanlar bunu çox vaxt anlamırıq və başa düşmürük. Anlamırıq ona görə ki, çox vaxt özümüzü dərk edə bilmirik. Ən yaxşı halda qəbiristanlıqda kimisə dəfn edəndə bir anlıq çox şeyi xatırlayırıq və həyatın faniliyini hiss edirik. Həmin anda içimiz təmizlənir, şeytan və qara qüvvələr ürəyimizdən çıxır, ora mələklər və nur gəlir.***

***Elə ki, qəbiristanlıqdan uzaqlaşırıq, yenidən oluruq həmin əvvəlki adam və deyirik ki, əşşi, dünya beş gündür, beşi də qara. Qoy öz işimizi görək...***

***...İnsan həm də ağır günlərində, dərdli anlarında onunla çörək kəsən, onunla yaxınlıq edən, ”qardaş” - deyib yada salan adamları yanında görmək istəyir. Elə ki bu adamlardan kimisə görmürsən, bax, onda düşünürsən ki, bu adam başdan ayağa saxta və qeyri-səmimi imiş. Üç-dörd dəfə ağır anında, kədərli günlərində, yası düşəndə yanında olduğun adam sənə telefonla başsağlığı da vermək istəmir. Heç onun başsağlığına da ehtiyac yoxdur. Sadəcə olaraq insanlar ağır günlərində ”dost” dediyi adamları daha dərindən tanıyır. Kimlər isə onun yanında olursa, demək o, əsl dostdur. Yoxsa, yeyib-içəndə, yüz-yüz vuranda bir-birinə ”can” deyən adamlar bir də görürsən ki, o dostunun ən çətin anında, daha doğrusu, yası düşəndə yanında olmur. Dünya belədir və belə də olacaq. Və bəzən güvəndiyin dağlara görürsən ki, qar yağıb. Elə güvəndiyin bəzi adamlar o qar yağan dağlara bənzəyir...***

***...Dünyanın hər üzünü görmüşük. Sevincdən çox dərdimiz olub. Mənim ağır günlərimdə, qardaşım Elxanı itirəndə bir daha insanların məni necə çox istədiyini gördüm. Bax, həmin adamların qarşısında baş əyib deyirəm: ”Allah sizi qorusun!”...***

***Dedim axı, həyatın hər üzünü görmüşük. Bu da bir sınaqdır. Qardaşımın birini 22 il bundan əvvəl 48 yaşında itirdim, balaca qardaşım Elxanı isə 60 yaşında, yəni martın 22-də anadan olduğu gündə. Şükür bu günə də! Çünki mənim qardaşım Allahın dərgahına yaxşı əməlləri ilə dönüb. Bəhmənlidə ”məmə deyəndən pəpə yeyənə” qədər hamı onun itkisinə kədərləndi. İynə atsan yerə düşməzdi. Onu sevənlərin hamısı son borcunu verməyə gəlmişdi. Qapımızdan düz qəbiristanlığa qədər maşınlar dalbadal düzülmüşdü. Yəni maşının bir ucu qapımızda idi, bir ucu da qəbiristanlıqda. 4 km məsafəni o maşının hər biri qət elədiyi və avtomobilin sükan arxasında olanlar qardaşıma son borcunu ödədilər.***

***...Mənə təsəlli olan odur ki, Elxan atamın yolunu davam elətdirirdi. Bəhmənlidə hamıya arxa dururdu. Bir adamın xeyrindən, şərindən qalmırdı. Çətin ki, mən onu əvəz edə biləm. Çünki hər ay bir dəfə, iki dəfə kəndə xeyirə, şərə gedərdi. Vaxtında çatdırmadığı yas yerlərinə isə molla apartdırıb Quran oxutdurardı.***

***Şükür Allaha ki, savadlı və istedadlı, atalarını əvəz edən oğul var - Qismət və Ozal! Allah onları qorusun! Onlara baxıb qardaşımın qoxusunu alıram. Və istər-istəməz Allahın hökmü ilə razılaşıram. Üstəlik də, üç nəvəsinə baxıb bir az da təsəlli alıram. Və təsəlli mənim qəlbimə bir rahatlıq, bir sakitlik, bir dinclik gətirir və bir daha Allahımdan özümə səbr diləyirəm...***

---

*Aqil ABBAS*

## OĞLUM ÖZÜ DƏ AĞLADI, MƏNİ DƏ AĞLATDI

***Aprel döyüşləri başlayan kimi rayona getmişdim. Cəbhə bölgəsində döyüşləri izləyirdim. Neçə gün ayaq üstə qalmışdım. Gecələr də yatmırdıq. 6-sı gecə qayıtdım Bakıya. Yorğun, ac-susuz, əsəbi. Gecə saat 11-12 olardı çatdım evə. Dedim bir stəkan çay verin, dilim-dodağım yanır.***

***Elə çayı təzəcə gətirmişdilər kiçik oğlum Tuncay girdi içəri. Məni görcək boynumu qucaqlayıb ağladı.***

***- Nə olub, oğul?***

***- Ata, Raquf Orucov şəhid olub.***

***Və ağlaya-ağlaya da Raquf Orucovun qəhrəmanlıqlarından danışırdı. Elə bil əziz bir adamını itirmişdi. Elə bil məni itirmişdi.***

***Dözməyib mən də ağladım.***

***Heç demə, neçə ilmiş Raquf Orucovu tanıyırmış.***

***- Ata, özü də sənin kəndçindi, o da Kolanıdı.***

***Mən Ağdamda qulluq etmiş zabitlərin az qala 90 faizini tanıyırdım, çoxu ilə bir qismət çörək kəsmişdim, amma çox qəribədir ki, Raquf Orucovla rastlaşmamışdım. Və təbii ki, bir daha rastlaşmayacağam da. Raquf Orucov cənnətdədi, hamını cənnətə buraxmırlar axı.***

***Bu gün Xalq Qəhrəmanı Raquf Orucovun anım günüdür. Və oğlumun göz yaşlarını yadıma salıb bu yazını yazanda da ağladım.***

***Ruhun şad olsun. Nəinki doğulduğun Kolanı, azad görmək istədiyin bütün Qarabağ azaddır.***

---

## *Ukrayna MN: “Rusiya ehtiyatda olan hərbçilərin gizli səfərbərliyinə başlayıb”*



**Ukrayna Müdafiə Nazirliyi ölkədəki durumla bağlı operativ məlumat yayıb. Rusiya ehtiyatda olan hərbçilərin gizli səfərbərliyinə başlayıb.**

Rəsmi informasiyaya görə, səfərbərlik əsasən Krasnodar, Perm, Dağıstan, İnquşetiya və Kalmıkiya ərazilərini əhatə edir. ”Ehtiyatda olan hərbçiləri həvəsləndirən maddi maraqdır. Rusiya hərbçiləri düşünürlər ki, onlar quldurluq və talançılıqla maddi durumlarını yaxşılaşdıra bilərlər”, - Ukrayna MN-dan qeyd olunub.

Həmçinin göstərilir ki, Rusiya səfərbərliyə təxminən 60 min nəfərin cəlb olunacağını gözləyir: ”Onlar köhnəlmiş silahları anbarlardan çıxaracaqlar. Həmin silahların bəziləri 30 ildən çoxdur ki, istifadə olunmur”.

Bundan başqa, Donetsk və Luqansk vilayətlərində son sutkada Rusiyanın 7 hücumu dəf edilib: ”Həmçinin 2 zirehli texnika, 43 avtomobil və 1 minaatan məhv edilib. Eyni dövr ərzində Ukrayna Silahlı Qüvvələrinin zenit-raket qüvvələri 6 hava hədəfini - üç təyyarə (SU-34, SU-35 və İl-22 təyyarələri), bir helikopter və iki qanadlı raketi məhv edib”.

**MEHRİBAN**

---

## *Xırdalanda külək məktəbin damını uçurdu*



**Abşeron rayonu, Xırdalan şəhərində güclü külək məktəbdə fəsad törədib.**

Trend-in məlumatına görə, külək nəticəsində Xırdalan 9 nömrəli tam orta məktəbin damı uçub.

Abşeron Rayon Təhsil Şöbəsindən Trend-in sorğusuna cavab olaraq bildirilib ki əsən güclü külək nəticəsində Xırdalan şəhər 9 nömrəli tam orta məktəbin dam örtüyünün bir hissəsi uçub. Hadisə nəticəsində xəsarət alan olmayıb.

”Vəziyyətlə bağlı məktəbdə dərhal ilkin təhlükəsizlik tədbirləri həyata keçirilib, aidiyyəti qurumlara məlumat təqdim olunub. Ən qısa zamanda dam örtüyünün bərpa işlərinə başlanacaq”, - deyə əlavə olunub.

---

# «Beyin cərrahı özünü əməliyyat edə bilmədiyi kimi...»

## *Zəka sahibi olmaq hələ müdrik olmaq anlamına gəlmir...*

***İnsan ruhunun və mənəviyyatının sağlığını qoruğmağa xidmət edən psixologiya elmi ildırım sürətilə inkişaf edən sivilizasiyamızın hər gün daha da aktuallaşan mövzusudur. Çağdaş dövrdə psixologiya insan haqqında ən mühüm elmlərdən biri kimi diqqəti cəlb edir. Təsadüfü deyildir ki, hazırda insan həyatı və fəaliyyətinin elə bir sahəsi yoxdur ki, psixologiya elmi oraya nüfuz etməsin. Mübaliğəsiz demək olar ki, hazırki dövrdə bütün dünyada hər cür fəaliyyətin və insan munasibətlərinin səmərəliliyini psixoloji biliklərin tətbiqində görürlər. Lakin nəzərə almaq lazımdır ki, mühüm elm sahəsi olan psixologiya başqa elmlərdən təcrid olunmuş şəkildə deyil, onlarla vəhdətdə mövcuddur və fəaliyyət göstərir. Mövzu ilə bağlı saytımıza tanınmış psixoloq Rəvanə Quluzadə müsahib. Həmin müsahibəni sizə təqdim edirik:***

**- Rəvanə xanım ! bir psixoloq kimi subyektiv olaraq hazırda cəmiyyətimizdə ümumi psixoloji vəziyyəti necə dəyərləndirirsiniz?**

- Müharibədən yeni çıxmış bir cəmiyyət olaraq, qismi qələbə hissi ilə bərabər, müharibənin bizə gətirdiyi minlərlə insanımızın itkisi, o itkilərimizin geridə qoyduğu ailələrin sağalmayacaq olan yaraları, yaralanmış müharibə iştirakçılarımızın yaşadıqları dərin travmaları və bu travmalarla apardıqları mübarizədə yaşadıqları çətinlikləri və yaşanan sosial-iqtisadi zərərlər göz önündədir. Tarix boyu baş verən bütün müharibələr cəmiyyətlərdə dərin izlər qoyur və daim xatırlanır. Ki, buna da psixologiyada "Kollektiv yaddaş" deyilir. Fərdi travmalardakı kimi, kollektiv travmalarda da xüsusən, müharibə sonrasında təhlükəsizlikdə hiss etmək ehtiyacı yaranır. Bu ehtiyacın ödənilməsi üçün əvvəlcə dövlət, daha sonra isə cəmiyyətin müharibədən daha az zərər çəkmiş, hadisələrə daha obyektiv baxmağı bacaran və analitik qabiliyyəti yüksək olan ayrı-ayrı fərdləri və peşə sahibləri mütləq öz növbəsində tədbirlər görməlidir. Və ya dövlət tərəfindən hazırlanan psixo-sosial dəstək xidmətlərinə daxil olmaları müharibədən bir başa və dolayı yolla zərər çəkmiş cəmiyyət fərdləri üçün faydalı olacaqdır.

**- Hər hansısa probleminiz yaranan zaman özünüzə psixoloq kimi yanaşa bilirsiniz?**

- Həyatın bir çox sahələrində bu peşə öz köməyimə də çatır. Aldığım bilgilər sayəsində bir çox hallarda problemlərdən yan keçə bilirəm və ya üzləşdiyim problemlərin içindən minimum zərərlə çıxmağı bacarıram. Bəzi çətin anlarda, mütləq kənar dəstək şərtdir. Belə bir bənzətmə yerinə düşərsə, beyin cərrahının özünü əməliyyat edə bilməməsi kimi. Amma bizim sahə ilə bağlı vacib olanı da vurğulamalıyam ki, bu sahə ilə aktiv məşğul olan hər bir psixoloq normal şərtlərdə ildə 1 dəfə psixoloq seansında olmalıdır.

**- Belə fikir var ki, psixoloqun psixoloji problemləri olmaz. Sizcə bu belədir?**

- Bu fikri çox dəstəklədiyimi deyə bilmərəm. Çünki psixoloq hər nə qədər insan düşüncə, duyğu və davranışlarını öyrənən bir peşəkar olsa da, unutmayaq ki, o da digərlərindən çox da fərqlənməyən, sıravi insandır. Təbii ki, psixoloq ilk növbədə öz fəaliyyətinə təsir edəcək problemlərini başqa bir psixoloqdan dəstək alaraq, həll etməlidir. Amma bu o demək deyil ki, psixoloqların mükəmməl və problemsiz həyatları olmalıdır. Yenə də tibbdən misal çəkəcəyəm : Bu fikir məncə Endokrinoloqda şəkərli diabet xəstəliyi olmaz demək kimidir.

**- İndiki psixoloqlardakı əsas problem nədir?**

-Psixologiya sahəsi çox maraqlı, insanları, onların düşüncələrini, biokimyəvi proseslərinin gedişindən irəli gələn davranışlarını və onların həyat fəlsəfələrini açıqlamağa çalışan bir elm olduğu üçün insanlarda bu peşəyə yönəlməyə həvəs yarada bilir. Bu çox yaxşıdır. Lakin psixoloq olmaq üçün bəzi vacib şərtləri gözdən qaçırmamaq lazımdır. Humanizm, dürüstlük, psixoloji sağlamlıq, duyğuları sabitliyi qoruma bacarığı, oxumağa, yeni bilik və məlumatları öyrənməyə böyük həvəs, fikirlərini istər danışıq, istərsə də yazı vasitəsi ilə ifadə edə bilmək qabiliyyəti, hadisələr, söhbətlər və münasibətlər arasında məntiqli bağ qura bilmə bacarığı. Bunlardan bir neçəsi olmadıqda, psixoloji dəstək fəaliyyətində ləngimələr və qırılmalar baş verir. Və başqa bir problem, son zamanlarda bu sahənin "ulduzu"nun daha parlaq olması bir çoxunu cəlb edir. Bu yolla məşhurlaşmaq istəyi təəssüf ki, Psixologiya sahəsinin əsas məqsədini kölgədə qoyur.

**- Sizin fikrinizcə bu sahədə əsas boşluq nədir?**



- Psixologiya sahəsi Azərbaycanda qismən yeni inkişaf yolunda olan sahələrdən olduğu üçün bu sahədə boşluqlar az deyil. Hər bir sahədə olduğu kimi, psixoloji xidmət sahəsində də müəyyən etik və hüquqi qaydalar vardır.

Bu qaydalar mütləq şəkildə dövlət qurumları tərəfindən tənzimlənməli və icrasına böyük diqqət yetirilməlidir. Bununla yanaşı, az əvvəl qeyd etdiyim psixoloji xidmət sahəsində tələb olunan şəxsi və peşə keyfiyyətlərinə də xüsusi diqqət ayrılmalıdır. Başqa bir boşluqlardan biri isə, cəmiyyətdə, "Psixoloqa ehtiyac yoxdur, mənim həll edə bilmədiyimi, başqası həll edə bilməz, mən ağılsızam ki, psixoloq mənə ağıl versin" kimi düşüncələrin formalaşmasıdır.

Elə bir sürətli inkişaf dövründə yaşayırıq ki, hər birimizin bəzən psixoloji olaraq yorulduğu, özünü boşluqda hiss etdiyi,nələrəsə çata bilmədiyi hissinə qapılması qaçılmazdır. Belə zamanlarda social dəstək almaq insanı rahatlaşdırır. Sosial çevrəsi daha az olan insanlar və ya sosial çevrədən deyil, professional psixoloji dəstək almaq bir ayıb və ya, düşünüldüyü kimi heç də ağılsızlıq və ya zəiflik deyil. Əksinə, bu bir yaşamaq sevgisi, özünü müdafiə mexanizmidir.

**- Fikrinizcə insan psixologiyasına yaxşı bələd olmaq və incəliklərinə qədər bilməyin şəxsi həyatda faydası çoxdur yaxud əlavə problemlərə yol açır?**

- Psixologiya elmi, onu xüsusi maraqla öyrənən şəxslərdə yüksək dərəcədə fərqindəlik qabiliyyəti yaradır. Yaşamağımız və bir çox problemlərdən qurtulmağımız üçün fərqindəlik çox vacib şərtdir. Deməzdim ki, insan psixologiyasını bilmək əlavə problem yaradır. Əksinə, insanları daha yaxşı anlamağa, onlara, hadisələrə onların pəncərəsindən baxmağa və dolayısı ilə münasibət yaratmağa şərait yaradır.

**- Uğurlu psixoloq işində hansı prinsipləri əsas tutmalıdır?**

- Az əvvəl qeyd etdiyim keyfiyyətləri özündə birləşdirməyi bacaran, bundan əlavə, yararlı olmaq, heç bir halda zərər verməmək, insan haqlarına sayğı və əsla ayrı seçkilik etmədən insanlara xidmət göstərmək (insanların dini seçimlərinə, fərdi əxlaq qaydalarına, dəyərlərinə və cinsi oriyentasiyalarına hörmət etmək), məsuliyyətli olmaq mütləqdir.

**- Universiteti bitirən gənc psixoloqlar ilk olaraq haradan necə başlamalıdırlar?**

- Gənc psixoloqlar təhsil aldıqları müddətdə psixologiyanın müxtəlif sahaləri ilə (klinik psixologiya, münasibət və ailə psixologiyası,təhsil psixologiyası, idman psixologiyası və s.) yaxından tanış olurlar.

Bu sahələrdən hansını seçəcəklərinə dəqiqliklə düşünüb, qərar verməlidirlər. Yaxşı olardı ki, elə universitet illərində ikən işində bacarıqlı, təcrübəli supervayzer tərəfindən superviziya dəstəyi alsınlar. Bu onların fəaliyyətlərinə uğurlu başlanğıc yaratmaları, böyük irəliləyiş üçün çox faydalı addım olacaqdır. Bununla yanaşı, bütün sahələrdə olduğu kimi, hər zaman oxumaq və öz sahələrindəki yeniliklərdən daim xəbərdar olmaq hər bir psixoloqa uğur gətirəcəkdir.

**Söhbətləşdi:**
**Bünyamin Bünyadzadə**

---

# Bakıda gecə klubunda partlayış

**3 aprel 2022-ci il tarixdə Səbail rayonu, Tərlan Əliyarbəyov 9 ünvanında yerləşən gecə klubunda partlayış qeydə alınıb. Verilən məlumatlara görə, partlayış propan qaz balonunun partlaması səbəbindən baş verib. Hadisə yerinə hüquq-mühafizə orqanlarının, Fövqəladə Hallar Nazirliyinin əməkdaşları və təcili yardım briqadaları cəlb edilib. Yanğınsöndürənlərin çevik müdaxiləsi sayəsində yanğın genişlənməsinə imkan verilməyərək qısa müddətdə söndürülüb. Bakı şəhər icra hakimiyyətinin başçısı Eldar Əzizov da hadisə yerinə gəlib.**



Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin birgə məlumata əsasən baş vermiş partlayış zamanı ümumilikdə 37 nəfər müxtəlif dərəcəli xəsarət alıb, 1 nəfər vəfat edib. Hazırda xəstəxanalarda hadisə nəticəsində xəsarət alan 16 nəfər var. Onlardan 13-ü dövlət tibb müəssisələrində müalicəsini davam etdirir.

Reanimasiya şöbəsində müalicə alan 7 nəfərdən 3-nün vəziyyəti kritikdir. Stasionarda müalicə alan digər 5 nəfərin vəziyyəti stabil ağır, 4-nün vəziyyəti orta ağır olaraq qiymətləndirilir. Baş vermiş partlayış zamanı xəsarət alanlardan 2 nəfər xarici ölkə vətəndaşıdır.

Həmçinin 14 avtomobil, 1 mənzil və 2 qeyri yaşayış obyektinə də ziyan dəyib.

**Baş Prokurorluğun Mətbuat xidmətindən verilən məlumata görə, faktla bağlı Cinayət Məcəlləsinin 225.2 (yanğın təhlükəsizliyi qaydalarını pozma - ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda) və 314.2-ci (səhlənkarlıq-ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda) maddələri ilə cinayət işi başlanaraq, Baş prokurorun müvafiq qərarına əsasən prokurorluq və Fövqəladə Hallar Nazirliyinin müstəntiqlərindən ibarət birgə istintaq qrupu yaradılmış, istintaqın aparılması Baş Prokurorluğun İstintaq idarəsinə həvalə olunub.**

**Nicat Novruzoğlu**

---

*Emin Piri*

## Naməlum əsgər məzarında doğulanlar...



***Şəhidlər xiyabanında idim...***
***Naməlum əsgər məzarı...***
***Bir çox məzarların üzərində gül vardı.***




***Bir də məzar üstündə şəhid anaları vardı.***

***Amma bu məzardan başqa...***

***Məzar qazılıb DNK analizi üçün nəşi aparılıb.***

***Kimsə yox idi məzarı başında. Başqalarında ana vardı. Ya da övlad, qohum...***

***Hə, onda da var idi.***

***Ana pişik vardı məzarı üstdə.***

***Məzarın içindəsə pişik balası. Balalayıb şəhid məzarına etibar etmişdi körpələrini.***

***Şəkildə gördüyünüz kimi. Məzar içindən pişik balası bizə boylanır. Anası isə məzarın yanındadır.***

***Bildiyim odur ki, o məzar daha naməlum və tənha deyil...***



*Eminquey*

## Rüşvət pulla alınan ərzaqlardan bişirilmiş yemək orucu pozurmu?

***Ramazan gəldi, ümmətimizin bir-birindən şəhanə sualları başladı. Düzdür, indiyə kimi ən gülməli sualları Türkiyədə Nihat Hatipoğlunun verilişində eşitmişəm, amma yenə də məmləkətimizdə də duzlu insanlar çoxdur. Ya efirdə, ya da hansısa bir şəraitdə hamı suallarına cavab axtarır.***

***- Hacı, nəfəs çatışmazlığım var, burnumu fısıldatmağım orucu pozarmı?***

***- Oruclu halda uşaq əmizdirmək olar?***

***- Göz yaşımı udmuşam, orucum pozulubmu?***

***- İmsakda dişibin dibində yemək qalığı qalmışdı, uddum. Orucum pozulubmu?***

***- Tüpürcəyi udmaq orucu pozurmu?***

***- Oruc ola-ola yatmaq orucu batil edərmi?***

***(Guya oruc tutmayanda çox da oyaq adamdır axı...)***

***Dərdimizə bax, ilahi!***<br>
***Badəm şərabla dolu***<br>
***Sinəm sualla dolu, Hacı!***

***- Oruc ola-ola başqasının haqqını yemək orucu pozurmu?***

***- Ərinə xəyanət etmək orucu pozurmu?***

***- Yolda bilə-bilə tıxac yaradıb nəsil-nəcabətini söydürmək orucu pozarmı?***

***- Oruc ola-ola qızların orasına-burasına yaxşıca göz gəzdirib işə götürmək orucu pozarmı?***

***- Rüşvət pulla ərzaqlardan bişirilmiş yeməklə orucumu açsam, orucum qəbul olunarmı?***

***- İftara qədər ağzımın suyu axa-axa vəzifəli, imkanlı adamlara (mədəni şəkildə deyirəm, biədəbini anlayın) yaltaqlıq etsəm, orucum pozularmı?***

***- "Topaz"dan udduğum pulla fitrə çıxarsam, qəbul olunarmı?***

***- Kiməsə söz verib, ümidli edib onu darda, çətində qoymaq orucu batil edərmi?***

***- İmsakdan sonra insanların ömürlərini yemək, arzularını oğurlamaq, ümidlərini öldürmək orucu pozarmı?***

***- İlin-günün bu vaxtında, yaşayış şərtlərinin ikiqat ağırlaşdığı dövrdə maska taxmadığına görə cərimə ödəyə-ödəyə söyüş söymək orucu batil edərmi?***

***- Ramazan ayında saxladığına "sənin gözlərini yeyim, sənin dodaqlarını yeyim, sənin..." deyən həcinin orucu qəbul olunarmı?***

***- Nəzir qutularından yığılan pulla özünə yaxşı şərait qurub xalqa "dünya malında gözünüz olmasın" demək orucu batil edərmi?***

***- TV-də "Çağırış" filmi göstərilərkən çevirib "Ata ocağı" serialına baxmaq orucu pozarmı?***

***- Nizami küçəsində partlayan klubdakı insanların yaralanmasına, ölməsinə sevinmək, oradakı insanlara damğa yapışdırmaq orucu pozarmı?***

***Məsələn, bir şey deyim, oruc tutanda ac qalırsınız deyə çox enerji sərf etməməyiniz daha yaxşıdır ki, iftara qədər taqətiniz olsun. O səbəbdən harada haqsızlıq görsəniz, ağzınıza su alıb oturun, danışmaq da xeyli enerji aparır. Hə, bir də, ağzınızdakı suyu udmayın, oruc pozur!***

## *Çempionatda 800-cü qolu vurdular*

**"Keşlə" Azərbaycan çempionatlarında 800-cü qolu vurub. Qol.az xəbər verir ki, bu, Premyer Liqanın 21-ci turunun "Qəbələ" ilə matçına təsadüf edib. 1:1 hesabı ilə başa çatan görüşdəki ilk qola imza atan Merab Qiqauri klubunun tarixinə yubiley topunun müəllifi kimi düşüb.**

1999-cu ildən "Xəzər Universiteti" və "İnter" adlarını da daşımış komanda 800-cü qolunu 614-cü oyununda vurub. Bu qollardan 437-si evdə, 363-ü səfərdə vurulub. "Keşlə" Premyer Liqada 800 və daha çox qol vuran 4-cü komanda olub. Bakılıların ilk topu 1999-cu il noyabrın 7-də "Neftçi" ilə görüşə (2:3) təsadüf edib.

# ƏDALƏTLİ OLMAQ - QƏHRƏMANLIQDIR! YENİ TARİXİ REALLIQ QARŞISINDA

**(əvvəli ötən saylarımızda)**

Obyektivlik naminə bəzi faktları da deyim. Teatr repertuarı sahəsində xalq yazıçısı Elçinin, dramaturq Əli Əmirlinin fəaliyyəti müəyyən rəğbət doğurur. Heydər Əliyev Fondunun keçirdiyi Muğam müsabiqələri təqdirəlayiqdir. Bu müsabiqələrin qalibləri - Təyyar Bayramov, Ehtiram Hüseynov, Nigar Şabanova, Mirələm Mirələmov, İlkin Əhmədov, Abgül Mirzəyev, Babək Niftəliyev, Kamilə Nəbiyeva, Pərviz Qasımov, xalq artistləri Mənsum İbrahimov, Könül Xasıyeva, Zülfiyyə Xanbabayeva, Teyyub Aslan, Aygün Bayramova, Nazpəri Dostəliyeva, Əməkdar artistlər Gülüstan Əliyeva, Elnarə Abdullayeva, Könül Kərimova, Teymur Əmrahın fəaliyyəti rəğbət doğurur.

ATV kanalında Nanə Ağamalıyevanın apardığı "Nanəli" verilişi geniş beynəlxalq nüfuz qazanıb. Azərbaycan ifaçılıq mədəniyyətinə bir Akademiya qədər xidmət göstərir. Adlarını çəkdiyim xanəndə və müğənnilərin səsi milli sərvətimizdir.

Yeri gəlmşkən deyək ki, bizim televiziyaların reklam siyasəti tamaşaçıları əsəbləşdirir, faktiki olaraq antireklama çevrilir. Bir də görürsən ki, romantik bir film, ya zərif, səmimi bir verliş getdiyi yerdə gemaroy üçün dərman, xanımlar üçün pampers, diş məcunu, bağırsaq qurdları üçün müalicə vasitələri reklam olunur.

Elə intim məsələlər var ki, onları reklam etmək olmaz. Bu milli mentalitetə zərər gətirər, mənəvi adət-ənənələri deqeredasiyayauğrada bilər. Qadının gözəlliyi zərifliyin qorunmasıdır. Kişinin gözəlliyi, mərdliyi və igidliyi, qadının gözəlliyi, nəcibliyi və zərifliyidir.

"Ağdağ", "Omid", "Metax" boruları tamaşaçıların gözünü mazol edib. Televiziyalarda reklam rolikləri həddindən artıq uzun olur. 40 dəqiqəlik teleserialın gedişində iki dəfə 20 dəqi-qəlik reklam verilir, əksəriyyəti də yalan çıxır. Bir sözlə tamaşaçını yoran reklam biabırçılığına ciddi nəzarət lazımdır.

**- Əsas fəaliyyət sahənizdən - ədəbi tənqiddən danışmadınız. Sizi xalqımız peşəkar tənqidçi, tənqidin tarixi və nəzəriyyəsinin araşdırıcısı kimi tanıyır. Sizə "filosof tənqidçi" deyirlər. 40 ildən artıqdır ki, tənqidin tarixi və nəzəriyyəsi ilə məşğulsunuz. Yeni tarixi dövrdə tənqidin vəziyyəti necədir?**

- 1976-cı ildə V kursun əvvəlində diplom mövzusu götürəndə 37-ci ildə repressiya olunmuş Əli Nazimin ədəbi-tənqidi görüşlərindən yazacağımı bildirdim. Kafedra müdiri, cəngavər xislətli Abbas Zamanov başını buladı.

- Başının ağrıyacağından qorxmursan - dedi. Dedim yox, - Onda mən sənin diplom rəhbərin olacağam, dedi. Namizədlik dissertasiyası həcmində (125 s.) işimi Abbas müəllimə evində bir həftəyə ona oxudum, elmi rəhbər kimi Abbas Zamanov, rəyçi kimi Xalq yazıçısı, professor Əzizə Cəfərzadə mənə tərifli rəy verdilər (Diplom işim və bu rəylər arxivimdə saxlanılır). Diplom müdafiəsi zamanı sevimli müəllimim türkoloq, professor Fərhad Zeynalov soruşdu: Nizaməddin, sən də digər tələbə yoldaşların kimi 50 səhifə yaza bilməzdin? Mən dillənməmiş Abbas müəllim cavab verdi: - Yox! O tamamilə işlənməmiş, bu vaxtadək qadağan olunmuş mövzuda yeni bir tədqiqat yazıb, buna görə onu alqışlamaq lazımdır.

Beləliklə, taleyimi tənqid tarixinə və nəzəriyyəsinə bağladım, ilk kitabım "Ədəbi mübahisələr" (1986) çap olundu, o vaxtdan bu çağacan onlarla kitabım, üç cildlik "Seçilmiş əsərlər"im 300-ə yaxın məqaləm çap olunub.

Tənqidçi xüsusi bir istedaddır, hər filoloq tənqidçi ola bilməz. Əslində tənqid tizfəhm sənətdir və bədii ədəbiyyata sevgidən başlanır.

Obyektiv və nəzəriyyə ilə silahlanmış tənqid ədəbi prosesi təşkil edir, onu irəli apara bilir. Mən 80-ci illərdə yazdığım "Tənqidin ədəbi prosesdə rolu" adlı konseptual monoqrafiyamda demişəm ki, ədəbi prosesin üç müəllifi var: yazıçı, tənqidçi və oxucu, ədəbiyyatın mənzili oxucu yaddaşıdır. Seyid Hüseyn deyirdi ki, "tənqidsiz ədəbiyyat ormanlarda bitən yabanı ota bənzəyir".

Bu barədə əsərlərimdə kifayət qədər fikirlər var, oxuya bilərsiniz. Bizim yazıçılar və şairlər tənqidi sevmirlər, tənqidçiyə düşmən gözü ilə baxırlar.

Ədəbiyyat tariximizdə ağıllı örnəksər var: romantik şair və maarifçi yazıçı Abdulla Şaiqin bir misrası bu gün bütün bəşəriyyəti düşündürür: "Hamımız bir günəşin zərrəsiyik".

İlk xalq şairimiz Səməd Vurğun II cahan müharibəsindən sonra yazdığı "İnsan" fəlsəfi dramında belə bir bədii sual verirdi "Qalib gələcəkmi cahanda kamal?!" Bu gün də həmin sual aktualdır.

İçi mən daxil tənqidçilər tərif yazmaqla məşğuldurlar. Heç kimin xətrinə dəymək istəmirlər. Fəqət, mən həmişə demişəm, layiq olmayan tərif ən amansız tənqiddir.

**- Nizaməddin müəllim dost sözü sizin üçün nə deməkdir?**

- Bu çox ağır sözdür: Vətən, Millət, Qeyrət kimi dost sözü də ağır və şərəfli anlayışdır. Dost insanın ikinci mənidir. Şəxsiyyət kimi sənin mənəvi və intellektual səviyyəndə olmayan adam sənin dostun ola bilməz. O bütün parametrlər üzrə sənə layiq olmalıdır. Dostları olmaq xoşbəxtlikdir, dostun nazına dözmək lazımdır. Dost da sevgili kimi çoxcəhətli anlayışdır. Mənim həyatda tanışlarım, hörmət bəslədiyim, dəyər verdiyim insanlar çoxdur. Bilirəm ki, ölkənin hər yerində mənə dəyər verən tələbələrim var...

Mən dost itkisinin ağrısını çox çəkmişəm. Həm Allahın əmri ilə dünyasını dəyişənlərin, həm də mənim bir dost kimi səmimiyyətimin psixoloji ağırlığına dözməyib tədricən məndən uzaqlaşanların.

Rejissor Faiq Zöhrabov, Xalq artistləri Fuad Poladov, Ramiz Əzizbəyli, şair Oqtay Rza, professor Hüseyn Həşimli, Buludxan Xəlilov, Nizami Xudiyev, jurnalist Məhəmməd Baharlı. Polis mayoru Knyaz Ələkbərov, şair Şöhlət Əfşar vəfat edəndə dərindən iztirab çəkdim...



Mən özümdən yaşlı adamlarla dostluq etmişəm. Akademik Məmməd Cəfər, Bəkir Nəbiyev, Tofiq Hacıyev, Kamal Talıbzadə, müxbir üzvləri Əziz Mirəhmədov, Yaşar Qarayev, Azad Nəbiyev, professorlar Qafar Kəndli, Kamran Dadaşoğlu, Mirəli Seyidov, Yusif Seyidov, Cəlal Abdullayev, Şamil Qurbanov, Abdulla Abbasov məni özlərinə dost sayıb, ehtiram göstərirdilər. Millət vəkili Vahid Əhmədovu, Xalq şairi Nəriman Həsənzadəni Göyçaylı Xəlil müəllimi, Lənkəranın ağsaqqalı Səadət Tağıyevi, Xaçmazlı Mübariz Həsənoğlunu, Xalq şairi Ramiz Rövşəni, professor Paşa Qəlbinuru, professor Timurçin Əfəndiyevi, akademik Nizami Cəfərovu, professorlar Asif Rüstəmlini və Vəfa Xanoğlanı, yazıçı Hüseynbala Mirələmovu dostum hesab edirəm.

**-Dünyaya gəlməkdən razısınızmı? Siz dünyaya niyə gəlmisinizmi?**

- Nə dünyaya gələndə, nə də dünyada gələndə insanın rəyini soruşmurlar. Mən dəfələrlə yazmışam: Rəyimi soruşsaydılar dünyaya gəlməzdim, rəyimi soruşsaydılar dünyadan getməzdim.

Dünyaya gəlməyimdən narazı deyiləm, yaşamaq gözəldir. Mən problemlərlə dolu şərəfli bir ömür yaşamışam, indi də şərəflə qocalmağa doğru gedirəm. Gənclik və sağlamlıq xoşbəxtlikdir, hamıya sağlam qocalıq arzu edirəm. Əslində yaşamaq Allahın ifadəsini yerinə yetirmək deməkdir.

Mən dünyaya xeyirxahlıq eləmək üçün gəlmişəm, bu missiyanı ləyaqətlə yerinə yetirməyə çalışır və bundan qürur duyuram. Allahımı, dinimi, Vətənimi, millətimi, ədəbiyyatımı və dilimi sevirəm, türk əsliml ə fəxr edirəm. Həyatdakı bütün gözəlliklər insan üçün yaranıb. Gözəlliyi duymaq, ondan barınmaq insanın həyatını mənalı edir, onu darıxmağa, qüssələnməyə qoymur. Qaraqabaq, bədniyyət, paxıl adamlardan uzaq olmağa çalışır, pozitiv insanları özümə doğma hesab edirəm. Həyatın mənasını səmərəli zəhmətdə görürəm.

**- Nizaməddin müəllim elə yaş dövründəsiniz ki, özünüz demişkən, bu nə çoxdu nə də az. Alim kimi əsərlərinizin, nüfuzlu bir şəxsiyyət kimi taleyinizin gələcəyini necə görürsünüz?**

- Əzizim Yunus bəy! Yaşasaq görərik: Güman edirəm ki, vaxt çatanda, Allahın əmri ilə bu gözəl dünyaya əlvida deyəndən sonra əsərlərim diqqətlə oxunacaq, adım daha da böyüyəcək. İnsanlara gərək olacaq. Bir dəfə böyükmütəfəkkir Mirzə Fətəli Axundzadə əcnəbi diplomatlardan birinə şikayətlənir ki, müasirlərimin nadanlığından təngə gəlmişəm, məni başa düşmürlər.

Diplomat dostu ona yazır ki, Mirzə Fətəli, rəncidə olma, gələcək nəsillər bizi başa düşəcək.

Mirzə Fətəli ona növbəti məktubunda yazır:

- "Mən buna qətiyyən əmin deyiləm, çünki gələcək nəsillər də biz eşşəklərdən törənmiş olacaqlar..." Lətifəsi bizdən uzaq, təəssüf ki, bəzən belə də olur. Ancaq mən gələcəyə nikbin baxıram, çünki biz o gələcəyin təməlini indidən möhkəm qoyuruq: yeni tarix yaradırıq, bu Zəfərlər tarixi - Dərbənd, Zəngəzur, Göyçə, İrəvan, Ərdəbil, Təbriz - bütöv Azərbaycan tarixi olacaq!

Onu 44 günlük Vətən müharibəsi şəhidlərinin, qazilərinin, onun ideologiyasını hazırlayan bizlərin - müzəffər Azərbaycan ziyalılarının övladları, nəvələri yaradacaq!

**- Nizaməddin müəllim, Sizi peşəkar tənqidçi olaraq fərqləndirən cəhətlərdən biri də budur ki, Siz həmişə ədəbi prosesi təşkil edən oxucu problemindən də yazmısınız. "Tənqidi mühakimədə oxucu kriteriyası" məqalənizi, yazıçı, tənqidçi, oxucu münasibətlərindən bəhs edən "Tənqidin ədəbi prosesdə rolu" monoqrafiyanızı xatırlatmaq istəyirəm. Bu əsərlər 80-ci illərdə yazılıb, bəs indi vəziyyət nədir?**

- İndi yeni tarixi reallıq yaranıb, müstəqillik dövründə çox şeylər dəyişdi. Ümumən oxucu problemi ədəbiyyatın "Olum" ya "Ölüm" məsələsidir. Oxucusu olmayan əsər ölü doğulmuş uşağa bənzəyir. Bədii əsərin mənzili yazıçının kabinetindən daha çox, oxucu qənaətidir, o oxucu ilə birlikdə yaşaya bilər.

Biz öz oxucularımızı itirmişik, bizi başa düşən oxucuların çoxusu dünyasını dəyişib. İndiki nəsil bolşevik-kommunist ideologiyasına xidmət edən əsərləri oxumaq istəmir. Bu bir tarixi zərurətdir. Çünki bu günün oxucusu müstəqillik epoxasının üzvüdür.

O Lenin, partiya, kommunizm yalanları haqqında əsərlərə heç yaxın da durmur. Mənə sual verirlər ki, "Qardaş olub Hayastan, Azərbaycan" şeirini yazan şair məgər 1805-ci il Kürəkçay, 1813-cü il Gülüstan, 1828-ci il Türkmənçay işğal aktlarından, 1905-ci il, 1918-ci il erməni qırğınlarından xəbərsiz idi?

Əlbəttə, xəbərdar idi... Bəzən biz özümüz ilan gülləyə doğru gedən kimi mənfur düşmənlərimizə qucaq açmışıq. Bu barədə çox danışmaq olar.

Fəqət, mən onları qınamıram, hakim ideologiya 70 il sovet dönəmində (xüsusən 37-nin repressiyalarında!) onların gözünün odunu almışdı, onlar xof və vahimə içərisində yaşayırdılar. Dərdlərimizin tarixi çox böyükdür:

İranla Rusiya müharibə aparıb onların olmayan qədim və ulu bir xalqın vətənini onun sahibi olan xalqın rəyini belə soruşmadan öz aralarında ata malı kimi iki yerə bölüblər. Və heç nə olmayıb kimi 200 ildir rahatca onu özünküləşdiriblər, İranda böyük Azərbaycan əraziləri və 40 milyonluq xalq farsların (və onların təbliğ etdiyi dinin!) zülmü altındadır. Dünya isə buna göz yumur...

**- Gənc nəslə sözünüz...**

- Mən 40 il ali məktəblərdə gənclərə əsl ziyalı sözü, milli yaddaşı oyadan, tariximizin böyüklüyünü bildirən SÖZ demişəm. Gənclərimizlə fəxr edirəm, qürur duyuram, Azərbaycan gəncləri Vətən müharibəsində babalarna layiq olduğunu sübut etdi. Dünyaya vətənpərvərlik nümunəsi göstərdi, gülə-gülə şəhid və qazi oldu. Onların qarşısında baş əyirəm, deməli dərslərimiz hədər getməyib.

İndi mən Azərbaycanın taleyindən nigaran deyiləm. Fəqət, müasir gəncliyi yad təsirlərdən, xüsusən rus və din donuna bürünmüş fars təsirindən qorunaq lazımdır. Gənclərimzi tarixi-milli ruhda böyütməliyik.

**- Səmimi və cəsarətli müsahibəmı görə Sizə təşəkkür edirəm.**

**Yunus Mirzə**

# "Məndən qadına aid bütün xoşbəxtlikləri ləzzətlə, qəhqəhə çəkərək aldı"

*Həmsöhbətimiz şairə Aida Adıgözəldir.*

**-Qadının yaşını soruşmazlar. Mənsə bir qədər mədəniyyətsiz olacam. Yaşınızı oxuculara bildirməsəm də paylaşımlarınızda sizi daha gənc biri kimi düşünürdüm.**

-Yaş məndə heç vaxt kompleks yaratmayıb. Bəlkə də yeganə sevindiyim gündür doğum günüm, baxmayaraq hər il bir yaş yaşlanmaq hamı kimi məndə də kədər doğurur. Yarım əsri yaşadım sayılır, 51 yaşın içindəyəm. 1971 doğumluyam. Maraqlı yaşadım, bəzi dövrlərini çıxmaq şərtilə. Amma ömrünü yenidən başla desələr məmnuniyyətlə 18 yaşıma qayıdar, təhsilimi tamamlayardım.

## *Yuxularımda çox məşhur yazıçı olurdum*

**-Şeir adətən gənclik nəfəsi olur. Sizsə yaxın 5-6 ildə dərc olunmağa başlamısınız. Bu sonradan şeir nəfəsinin açılmasıdır, ya mane olan başqa səbəblər vardı?**

-Mən 9 yaşından mütaliəyə başlamışam. 23 yaşımacan 2000 dən çox bədii kitab oxudum. Sırf nəsr! Təsəvvür edin Kapitalı 7 ci sinifdə oxumuş adamam. Heç vaxt poeziyanı sevmədim. Heç vaxt bir gün şair olacağımı da düşünmədim...Amma yuxularımda çox məşhur yazıçı olurdum, necə gözəl süjet xətti olan romanlar yazırdım. Səhərsə bunların sadəcə oxuduğum kitabların təsiri altında olan yuxular olduğuna inanıb unudurdum. Mən romantik kimi görsənsəm də realist insanam. Xəyalpərəstəm, amma bu illüziyalar realizmin sərhəddinə qədərdir. Bir dəfə 10 yaşımda Vətən adlı şeir yazdım. Ədəbiyyat müəllimim şeiri ona göstərəndə son dərəcə kobud ifadə ilə sərt reaksiya göstərdi. Əslində haqlıydı, o şeir deyildi amma məni ruhlandırmaq üçün stimullaşdırıcı istiqamət verə bilərdi. Onuncu sinifdə oxuyanda Kürün sahilində oturmuşdum. Kənd yerinin dedi qodularına baxmayaraq sevirdim belə sakit köşədə özümlə danışmağı. Bir gün Ana Kür adlı mənsur şeir yazdım. Və bununla da şeirlə vidalaşdım... Ta ki feysbuka gələnəcən. Həmişə hiss edirdim içimdə məndən başqa kimsə var, nələrsə danışır. Tək qalan kimi pıçıltılar başlayırdı və mən o səsləri sükut içində kədərlə dinləyirdim...Kitab adları mənə görə içindəki nə varsa onları özündə ehtiva edən abbreviaturadır.O üzdən ilk kitabımın adını "Sükutun səsi" qoydum. Yəni, artıq eşidilməyə başlayan səs.

**-Rayonda yaşayırsınız. Ara-sıra Bakıda imza günlərində və.s görürəm. Bakı ilə rayonlarımızın ədəbi mühitində hansı fərqlər var?**

-Cəmi bir ildir kənddəyəm. 27 il Bakıda yaşadım. Bakıya gəlin köçmüşdüm, yoldaşım şəhərli idi.

Sonra yoldaşımın vəfatından və bəzi məcburiyyətlərdən dolayı anamın yanına sığınmağa məcbur oldum. Bu üzdən artıq şəhərdəki dostlarla görüşlərim seyrəlib. Fərq necədir? Sosial şəbəkə bu məhdudiyyəti demək olar ki, sıfra endiib. Yəni virtual olaraq yaradıcı əhatəmlə sıx münasibətdəyəm. Dərc olunmamda da problem olmur. İnternet bunu da asanlaşdırıb. Demirəm sıx dərc olunuram, hər tərəfdə varam. Məncə yetəri qədər varam. Əslində ədəbi taleyi xoşbəxt insanam deyərdim. Çünki cəmi 7 illik ədəbi fəaliyyətim dövründə mən dibdən qalxmadım. Bir də gördüm yaxşıların içindəyəm və mənə uzanan əllər də ədəbi camiənin ən istedadlı söz qələm sahibləridir.

Təmənnasızcasına mənə dəstək verdilər və yenə də verirlər. O imzalar ki bu gün ədəbi janrın yükünü çiyinlərində daşıyan söz fədailəri yol yorğunlarıdır. Bəzən yazar dostlarım bizim gənclik vaxtımızdakı imzalar haqqında xoş sözlər danışaraq rəhmət oxuyurlar.

Onlara sovet və sovetin dağılan vaxtında qarışıq zamanına düşmüş illərdə önə çıxmalarına, dərc olunmalarına necə dəstək olmaları barədə gözəl sözlər söyləyirlər. Nə xoşbəxtəm ki, mənim də belə xatirələrim var canlı heykəllər haqqında.

## *23 yaşımacan 2000 dən çox bədii kitab oxudum*

**-Çox hallarda rayonlarda yaşayan yazarlar paytaxtdan uzaqlıqdan, bunun yaratdığı çətinlikdən danışır. Halbuki müasir texnoloji dövrdə bunun elə bir dəhşətli ögeylik yaradacağını düşünmürəm. Bəlkə bu özünü sığortadır? Guya Bakıda yaşayanlar dünya ədəbi mükafatlarını bölüşdürdü, rayon camaatına "nobel" filan qalmadı?**

- Məncə də özünü sığortadır. İstedadlı insana manelər ola bilər, amma bu günkü



dövrdə sosial şəbəkə ən istedadsız adama belə məşhur ola bilmək fürsətini yaradır. Demək olar ki, senzura yoxdur.

Və üstəlik özəl nəşriyyatların olması maddi durumu yaxşı olan sponsor tapa bilən hər kəsi!

Maklaturanı korlamaqdan başqa heç nəyə yaramayan nələr olsa da kitab halına salıb kütləyə təmtəraqlı şəkildə təqdim edə bilir. Oxucusu olsa da, olmasa da...

**-Son iki ildə iki kitabınız dərc olunub. Açığı mediada elə də geniş işıqlandırılmadığından istərdim özünüz bu kitablar haqqında məlumat verəsiniz.**

-Bəli, ardıcıl iki kitabım dərc olundu. Hal-hazırda əlimdə çap olunmağa hazır olan iki (nəsr və nəzm) kitabın materialı var.

Amma dərc etdirməyə maddi imkanım yoxdur və mən buna görə hətta öz yaxınlarıma belə kömək üçün ağız açacaq biri deyiləm. Hərdən oxuyuram yazdıqlarımı, bəzən şeirlərim məni diksindirir, bunu necə, hansı ruh halında yazmışam deyə təəccüblənirəm. Xoşbəxt şeirim yoxdur, hamsı kədərlidir.

Bəlkə də bu yaşantılardan qaynaqlanan, içindən heç bir vəchlə qopa bilmədiyim tale kədəridir.

Tək onu bilirəm və bunu indi anlamağa başlayıram ki, mənim ömrümə bu cür taleyin yazılması məhz şair ömrü yaşayacağımın bəlirtisi imiş. Həyat məndən bütün qadına aid xoşbəxtlikləri ləzzətlə qəhqəhə çəkərək əllərimdən sevinclə dartıb aldı və əvəzində şair ömrü verdi...

**-Yerişə and vermək. Sevgi şeirlərimizdə and verilməyən bir nəsnə qalmayıb. Şairlər şeirlərində niyə bu qədər and içir? Adətən yalan danışanlar and içir. Siz də sevgidə yalançısınız?**

-Bütün şeirlərimin içində varam. Hamsı hansısa bir anın sözə çevrilmiş şəklidir. "Deki" şeiri də belə bir unudulmaz anın sözə, şeirə çevrilmiş xatirəsidir. Bəli "and içməklər" şeirimizdə artıq istiqamət halını alıb. Hərə özünəməxsus şəkildə bunu yansıtmağa çalışır.

Əslində isə bunun nə qədər şablon pafsizmdən uzaqlaşdırıb oxucuya ən yaxşı şəkildə məhz qəbul yedirdə bildiyini, sənin daha inandırıcı olduğunu yalnız və yalnız oxucu təyin edir. Sadəcə mən sözün duyğu tablosunu çəkirəm və içində oxucu titrəyib ağlayırsa, özünü görə bilirsə, hansısa bir anını xatırlayıb hətta kədər içində gözləri dolub xoşbəxt olursa demək mən sözün rəssamlığın bacarmışam. Və monitordan belə oxucu sevgisinin içdən gəldiyini, səmimiyyətini hiss edirəm. Sevildiyimi oxucularım hər gün mənə xatırladır, bu da əlbəttə ki, bütün yaradıcı adamlar kimi məni xoşbəxt edir.

**-Hə bir də bütün şeirlərimizdə "ölürəm" deyirik. "Sənsiz öləcəm", "sənsiz öldüm", "daha yaşamayacam" və.s. kimi. Amma sonra görürük ki, bunu deyən şair həmin şeirindən daha çox yaşayıb.**

- Biz axı şeir yazanda dünyadan qopuruq o yazdığımız obrazı təqdim etmək üçün təxəyyül gücümüzün imkan verdiyi qədər söz bazamızdan yararlanaraq özümüzü unudub ruhən o məchul kimsənin yerinə danışırıq, sevirik, qərar veririk, əsəbləşirik və ölürük...

Bu yaradıcı adam üçün adi və normal haldır. Yazdığını yaşamasan, hiss etməsən o sadəcə söz yığını olar. "Darıxanda söylə" adlı bir şeirim var, təsvirlərə, metaforalara baxsan sırf təbiətdən alınma təşbihlərdir. Bir həftə durmadan ağlatmışdı. Hansı ki, o şeir məni...

Mütləq bütün şeirlərimi göz yaşı içində yazıram məndən asılı deyil. Ya mən çox ruh halına girirəm, ya da duyduğum yaşantının təsiri çox ağır olur. Çox adam elə hesab edir ki bütün yazdıqlarımız öz başımıza gələnlərdir. Amma bu qədərini yaşamaq heç bir yaradıcı adamın həyat ölçüsünə görə deyil axı.

Sadəcə hadisələr, xatirələr anlar var və bunları qalır şeir hekayə povest roman halına salaraq təqdim etmək bacarığı... Hə, bu artıq istedadın gücü, yaradıcı potensialla bağlıdır.

**-İmza günləri görüşmək, bir araya gəlmək üçün bəhanə idi. Daha doğrusu belə günlərdə oxuculardan çox dostlar, elə şairlər yığışır. Amma kağızın da qiyməti qalxıb. Nə deyirsiniz, şair görüşləri(imza günləri) səngiyəcək?**

-Heç nəyə baxmayaraq həyat davam edir. Həyatın axarını heç nə saxlamaq gücündə deyil. Arxadan sürətlə yeni nəsil gəlir.

Bəlkə müharibələr, yeni pandemiyalar, yəni süni yaradılmış məcburiyyətlər istisna yaratmazsa...öz icad etdiyimiz texnologiyalar dünyamızı məhv etməsə insan oğlu daş dövrünü, mağara həyatını görmüş canlı olaraq öz yaşayışının yenə də çəmini taparaq yaşayacaq. Bir haşiyə çıxım, çox illər qabaq bir yaxınımın yas mərasimini xatırlayıram. Gənc oğlunun tabutunu qaldırmağa hazırlaşan dərddən beli bükülmüş atanın qəfildən dodağına təbəssüm qonması... Bunu görərkən çox təəccüblənmişdim!

Sən müharibə yolu keçmiş, kirpiyi ilə od götürmüş, gözü önündə bir an içində göz-gözə baxdığın döyüş yoldaşlarının öldüyünü görən və irəli deyib yenə də ardınca bölüyünü aparan döyüşçü şairsən. Bu anı gözəl bilirsən.

Gənc olarkən çox şeylər təəccüblü gəlir. Bir yaşdan sonra bir də görürsən ətrafın məzarlıqdır. Ayaq səsləri bitmək üzrədir artıq qəbirləri ziyarət etməyə yol salmısan. Pessimist tonlarda söhbətimizi bitirmək istəməsəm də ömrün bir çağında reallıq səni elə tutub silkələyir ki, özünün də xəbərin olmadan bir də görürsən torpaq altından kiməsə səslənirsən Hey gedən yolçu ayaq saxla ...

**Söhbətləşdi:**<br>
**Emin Piri**

## *Mehmet Əli Ərbil Seda Sayana söz atdı: "7-ci toya qatıla bilməsəm, 8-ci toya mütləq gedəcəyəm"*



**Xəbər verdiyimiz kimi,Uzun müddətdir küsülü olan müğənni Seda Sayan və şoumen Mehmet Əli Ərbil barışıb. Yadınızdadırsa, tərəflər arasında problem Ərbilin Seda haqqındadediyi "Televiziya kanalları hələ də reytinq ala bilməyən bu qadını işə götürürlər" ifadəsinə görə yaşanmışdı. Barışıq üçün ilk addımı məşhur şoumen atdı. Sedanın konsertinə dəvətsiz gələn Mehmet "Ah yalan dünya" mahnısını səsləndirərək səhnəyə çıxdı. Sürpriz hərəkətlə üzləşən ifaçı bunu müsbət qarşıladı və onlar səhnədə qucaqlaşdılar.**

Adalet.az Türkiyə mediasına istinadən xəbər verir ki, müxbirin Mehmet Ali Erbilə, "Seda Sayan Çağlar Ökten 7-ci dəfə evlənməyə hazırlaşır. Amma siz 4-də ilişib qaldınız"sorğusuna cavab verib. Tanınmış şoumen yarızarafat, yarıciddi bu sözləri deyib: "Ona çatmağıma hələ çox var. 6-cı toya gedə bilmədim, 7-si xeyir olsun" dedim.Bax 7-si gəldi. Buna da qatıla bilməsəm 8-ci toyamütləq gedəcəm".

Qeyd edək ki, ötən il türkiyəli müğənni Seda Sayan şoumen Mehmet Əli Ərbilin onun haqqında dediyi "keçmişi təmiz deyil" sözlərinə cavab verərkən də münasibətləri pozulmuşdu.

Sənətçi Mehmet Əli Ərbil ilə bütün fotolarını silərək İnstaqramın hekayə bölməsində bunları qeyd etmişdi:

"Tuğba ilə evli olarkən evinizdə çalışan qulluqçuya təcavüz edəndə səssiz qaldığım üçün keçmişimin kirli olduğu doğrudur. Hələ ardı da var. Məncə işinlə məşğul ol, ruhunu təmizlə. Bu hadisə məni kirli etmir. Onsuzda boşanma səbəbin bu olduğu üçün bütün yaxınların, ailən hadisəni bilirdi. Hamı səni xilas etmək üçün çalışırdı. Mən yad idim. Keçmişi kirli olan sənsən".

**Seda Sayan daha sonra paylaşımlarını silərək "Dua et uşaqlarının xətrinə, Allahdan üzr istə məndən yox" sözlərini yazmışdı.**

**Əntiqə Rəşid**


**Elan**

BPLUS GO MMC şirkətinə məxsus VÖEN 2006523211 itdiyi üçün etibarsız sayılır.


Aqil Abbas və Əbülfət Mədətoğu Qarabağ qazisi **Firudin Məmmədova** anası

**Şükufə xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Aqil Abbas və "Ədalət" qəzetinin kollektivi iş yoldaşları **Əntiqə Rəşidə** əmisi

**Eldar Aslanovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**Təsisçi və baş məsləhətçi:**<br>
**Aqil ABBAS**

**Baş redaktor:**<br>
**İradə TUNCAY**

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**<br>
kod: 200112 h\h VÖEN 9900003611<br>
Müxbir hesabı: AZ37NABZ01350100000000001944<br>
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:<br>
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161<br>
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**



Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.<br>
**Telefon: 538-05-50, 538-51-31. 434-55-98**<br>
**Faks: 539-80-26**<br>
**adaletqezeti@rambler.ru**<br>
**adaletqezeti@mail.ru, adaletqezeti@box.az**



**Tiraj: 1500**<br>
**Sifariş: 72**<br>
Çapa imzalanmışdır:<br>
04.04.2022